"Ey iman gətirənlər! Allahdan qorxun və Onun peyğəmbərinə iman gətirin ki, (Allah) sizə Öz mərhəmətindən iki pay versin, sizə (qıl körpüsü üstündə) getməyiniz üçün nur bəxş etsin və sizi bağışlasın. Allah bağışlayandır, rəhm edəndir!"

*(Qurani-Kərim, əl-Hədid, 28)*



## Prezident İlham Əliyev Respublika Günü münasibətilə rəsmi qəbulda iştirak edib

Mayın 27-də "Buta" sarayında Azərbaycanın milli bayramı – Respublika Günü münasibətilə rəsmi qəbul keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva rəsmi qəbulda iştirak ediblər.

Azərbaycanın dövlət himni səslənib.

Prezident İlham Əliyev rəsmi qəbulda nitq söyləyib.


www.scwra.gov.az

Dinimiz milli-mənəvi sərvətimizdir.

# Cəmiyyət və Din

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 05 (286) / MAY 2015-ci il


# İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə ucaldılmış abidəni ziyarət edib



Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə paytaxtın İstiqlaliyyət küçəsində ucaldılmış abidəni Respublika Günü münasibətilə ziyarət edib.

Abidənin ətrafında fəxri qarovul dəstəsi düzülmüşdü. Dövlətimizin başçısı abidənin önünə əklil qoyub. Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.

# Prezident İlham Əliyev: Ölkəyə, xalqa, dinə hörmət digərlərinin ənənələrinə və dəyərlərinə hörmətdən başlayır

## *Bakıda III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilib*

***Mayın 18-də Bakıda "Mədəniyyəti ortaq təhlükəsizlik naminə paylaşaq" mövzusunda III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun rəsmi açılışı olub.***

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva açılış mərasimində iştirak ediblər.***

***Dövlətimizin başçısı mərasimdə nitq söyləyib:***

- Hörmətli xanımlar və cənablar.

Hörmətli qonaqlar.

Azərbaycana xoş gəlmisiniz.

Çox şadam ki, bu gün Bakıda III Mədəniyyətlərarası Dialoq Forumu öz işinə başlayır. Bu, yaxşı göstərici və ənənədir. Biz üçüncü dəfədir ki, bu qlobal Forumu təşkil edirik. Bu, mədəniyyətlərarası dialoq məsələlərinin müzakirə olunmasının artan əhəmiyyətini nümayiş etdirir.

Bu gün yüzdən artıq dövlətin nümayəndələri Bakıdadır. Bu isə bir daha belə müzakirələrin vacibliyini təsdiqləyir. Əminəm ki, mədəniyyətlərarası münasibətlərə müsbət dinamika verilməsi üçün Forumun keçirildiyi günlərdə dəyərli fikirlər səslənəcək. Azərbaycan bu sahədə öz səylərini hər zaman göstərir və xalqları, dövlətləri, sivilizasiyaları bir araya gətirməyə çalışır.

Azərbaycan sivilizasiyaların, mədəniyyətlərin və dinlərin kəsişməsində yerləşir. Biz Avropa və Asiya arasında yerləşirik. Əlbəttə ki, bu coğrafi yerləşmə Azərbaycanın mədəni müxtəlifliyində öz rolunu oynamışdır. Əsrlər boyu bütün mədəniyyətlər, dinlər və etnik qrupların nümayəndələri Azərbaycanda sülh və ləyaqət şəraitində bir ailə kimi yaşamışlar. Biz fəxr edirik ki, bu müsbət meyillər müstəqillik illərində daha da güclənmişdir.

səh. 2



...Azərbaycan Respublikasının dövlət müstəqilliyi 1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Respublikasının ənənələri əsasında, müasir tələblərlə, dünyada gedən proseslərlə bağlı olaraq təmin olunmalıdır. Bu sahədə mən daim çalışacağam və heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harda olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm. Bununla əlaqədar olaraq bildirmək istəyirəm ki, mənim fikrimcə, Azərbaycan Respublikası bundan sonra onun başına nə gəlirsə-gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir başqa dövlətin əsarəti altına düşməyəcək.

...Biz Azərbaycanda demokratik müstəqil respublika quraraq sivilizasiyalı cəmiyyət uğrunda mübarizə apararaq, ümumi dünyəvi bəşəri dəyərlərin hamısından istifadə etməliyik. Biz çalışmalıyıq ki, Azərbaycan uzun illərdən, əsrlərdən sonra, ilk dəfə müstəqilliyini aldıqdan sonra bütün dünyaya öz tarixi nailiyyətlərini, öz milli ənənələrini nümayiş etdirə bilsin. Güman edirəm ki, Azərbaycan xalqının bu barədə həm tarixi, həm müasir potensialı olduqca böyükdür. Bunların hamısından səmərəli istifadə olunarsa, Azərbaycan həm tam müstəqil demokratik bir dövlət olacaq, həm də bizim cəmiyyətimiz tam demokratik hüquqi, ümumbəşəri dəyərlərin əsasında qurulan demokratik bir cəmiyyət olacaq. Bunun üçün bizim həm elmimiz, həm mədəniyyətimiz, həm tarixi ənənələrimiz, həm dini mənbəyimiz olan İslam dini - hamısı birlikdə çox böyük əsas yaradır. Vəzifəmiz bundan ibarətdir ki, bunlardan səmərəli istifadə edək.

... Azərbaycan on illərlə, yüz illərlə bu torpaqda yaşayan bütün insanların Vətəni olub, bundan sonra da Vətəni olmalıdır...

*Ümummilli Lider Heydər Əliyev Azərbaycan Respublikası Milli Məclisinin iclasındakı çıxışından*

*15 iyun 1993-cü il*

# Prezident İlham Əliyev: Ölkəyə, xalqa, dinə hörmət

## Bakıda III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilib




*(əvvəli 1-ci səhifədə)*

Bizim tarixi abidələrə nəzər salmaq yetər ki, Azərbaycanın mədəni müxtəlifliyi aydın görünsün.

Biz tarixi və mədəni irsimizlə fəxr edirik. Dünyanın ən qədim məscidlərindən olan, 743-cü ildə inşa edilmiş məscid Azərbaycanın qədim Şamaxı şəhərində yerləşir. Dünyanın ən qədim kilsələrindən biri - Qafqaz albanlarının kilsəsi Azərbaycanın digər qədim Şəki şəhəri yaxınlığındadır. Pravoslav və katolik kilsələr, sinaqoqlar, atəşpərəstlər məbədi bizim mədəni irsimizin tərkib hissəsidir və biz bununla fəxr edirik.

Bu gün Azərbaycanda bütün dinlərin və etnik qrupların nümayəndələri yaşayır və ölkəmizin uğurlu inkişafına öz töhfələrini verirlər. Düşünürəm ki, bu, bizim ən böyük sərvətlərimizdəndir. Biz bundan qürur duyuruq və multikulturializm dəyərlərinin, sülh, əməkdaşlıq və qarşılıqlı anlaşmanın təşviqi üçün müxtəlif beynəlxalq tədbirlər keçiririk. Hesab edirəm ki, müsbət meyillərin güclənməsi üçün dünyada belə tədbirlərə, açıq müzakirələrə və fikir mübadiləsinə ehtiyac var.

Təəssüflər olsun ki, bu gün dünyanın müxtəlif yerlərində baş verənlər dərin narahatlıq doğurur. Biz mənfi istiqamətdə cərəyan edən meyillərin şahidi oluruq. Bu səbəbdən ölkələri, sivilizasiyaları və dinləri daha da yaxınlaşdırmaq üçün hansı işlərin görülməli olduğunu açıq və səmimi müzakirə etməliyik. Gərginliyin və nifrətin azaldılması beynəlxalq gündəmin ən mühüm məsələlərindəndir. Bizim ölkədə multikulturalizm ənənələri hər zaman güclü olub və Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması bu dəyərlərin təşviqi istiqamətində hökumətimizin atdığı daha bir addım idi.

Multikulturalizmin alternativi yoxdur. Hesab edirəm ki, siyasətçilərin, ictimai xadimlərin, beynəlxalq təsisatların, qeyri-hökumət təşkilatlarının və medianın bu məsələdə məsuliyyəti artmaqdadır. Bildiyimə görə, Forumun mövzularından biri məhz ictimai xadimlər və siyasətçilərin məsuliyyətinə həsr edilib. Biz bəzi hallarda görürük ki, dini nifrət süni şəkildə yaradılır. Bəzən dünyanın müxtəlif yerlərində etnik və dini zəmində zorakılığın şahidi oluruq və o zaman siyasətçilərin və vəziyyətə təsir edə bilən insanların məsuliyyəti artır. Düşünürəm ki, bu səbəbdən multikulturalizm dəyərlərini birgə səylərlə təşviq etməliyik. Bilirəm ki, bununla bağlı müxtəlif fikirlər və bəzən də pessimist ideyalar var. Lakin multikulturalizmin müsbət nümunələri də var və Azərbaycan onlardan biridir. Hesab edirəm ki, multikulturalizmi gələcəyi olmayan məfhum kimi təqdim etmək təhlükəlidir, əksinə səylərimizi dayandırsaq, dünyada vəziyyət daha da pisləşəcək. Bu səbəbdən artıq dünyada multikulturalizm mərkəzlərindən biri olaraq tanınan Azərbaycan kimi ölkələrin nümunəsi yaxşı göstəricidir ki, multikulturalizm yaşayır və biz müsbət meyilləri stimullaşdırmalıyıq. Bunun alternativi nədir? Təcridolunma, ayrı-seçkilik, ksenofobiya, islamofobiya, antisemitizm kimi təhlükəli amillərdir ki, onlar artıq bəşəriyyət tarixində sivilizasiyaların və xalqların fəlakətinə səbəb olub.

Dərin multikulturalizm köklərinə malik ölkə və xalq kimi, biz qlobal arenada bu müsbət dəyərlərin təşviqində müvafiq rol oynamağa çalışırıq. Azərbaycan müsəlman dünyasına mənsub olan ölkədir, ancaq eyni zamanda, onun Avropa ilə güclü bağlılığı var. Müsəlman dünyasının ilk demokratik respublikası 1918-ci ildə Azərbaycanda yaradılıb və dərhal qadınlara seçki hüququ verilib. Bu da bir sıra Avropa ölkələrindən əvvəl baş tutub. Beləliklə, bizim etnik və mədəni özünəməxsusluğumuz, habelə Avropanın təsiri cəmiyyətimizdə xüsusi ab-hava yaradıb. Əsrlər boyu biz dəyərlərimizi qoruya bilmişik. Biz fərqli siyasi və ictimai şəraitdə yaşamışıq, müxtəlif dövlət və imperiyaların tərkibində olmuşuq. Artıq biz müstəqilik, ancaq bu müsbət meyil davam edir və bu dəyərlərin təşviqi məsələsinə sadiqik.

Mədəni müxtəliflik və mədəniyyətlərarası dialoqun təşviqinin ən vacib elementlərindən biri əlbəttə ki, təhsildir. Biz təhsilə böyük diqqət yetiririk və fəxr edirik ki, Azərbaycanda savadlılıq 100 faizə bərabərdir. Təhsil gələcəyin, inkişafın yoludur. Elə inkişaf etmiş ölkələr var ki, onlar tərəqqini təbii sərvətlərlə deyil, təhsil, elm və texnologiyaların inkişafı sayəsində təmin ediblər. Eyni zamanda, təhsil ekstremizmə, radikalizmə, fundamentalizmə, terrorçuluğa qarşı təminatdır. Bu, müasir həyatın təhlükəli elementlərinə qarşı sığortadır. Bildiyimə görə, bu mövzu ətrafında müzakirələr Forumun diqqət mərkəzində olacaq və hesab edirəm ki, Azərbaycanın təcrübəsi də maraq doğuracaq. Çünki biz də bu gün təhsil sistemimizi transformasiya edirik və onu beynəlxalq standartlara çatdırırıq. Biz məmnunuq ki, gənc nəsil azərbaycanlılar həyatda öz layiqli yerlərini tutmaq və ölkənin potensialını gücləndirmək üçün daha çox öyrənmək, qabiliyyətlərini artırmaq arzusundadırlar. Eyni zamanda, biz fəxr edirik ki, gənc nəsil vətənpərvərdir. Vətənpərvərlik insanların ölkəsini sevməsi deməkdir. Habelə bu, dövlətlər və xalqlar arasında birliyi gücləndirən amildir. Biz hər zaman hesab edirik ki, ölkəyə, xalqa, dinə olan hörmət digərlərinin ənənələrinə və dəyərlərinə hörmətdən başlayır. Yalnız bu yolla uğura nail olmaq mümkündür.

Təəssüflər olsun ki, bu gün biz daha çox bu haqda danışmalı oluruq. Çünki biz bu gün dünyanın müxtəlif yerlərində etnik, dini, məzhəb zəminində ayrı-seçkiliyi görürük. Bu da faciəvi bir haldır. Biz bunu öz qonşuluğumuzda görürük. Biz, həmçinin neofaşizm hərəkatı kimi təhlükəli meyillərin şahidi oluruq. Beynəlxalq ictimaiyyət, onun liderləri bu məsələyə çox ciddi şəkildə yanaşmalıdırlar. Çünki biz bu döyüşdə qalib gəlməliyik və bunu yalnız birgə səylərimizlə edə bilərik. Bu səbəbdən bu gün burada təşkil etdiyimiz Mədəniyyətlərarası Forum kimi tədbirlər çox əhəmiyyətlidir. Hesab edirəm ki, Bakı bu gün belə məsələlərin müzakirə edildiyi məkandır.

Müstəqil Azərbaycan nisbətən gənc dövlətdir, yalnız 24 ildir ki, müstəqildir. Lakin bu illər islahat, transformasiya, inkişaf illəri olub. Biz dövlətimizi qurmaq fürsəti əldə etdik. Biz ənənələr və mədəniyyət ölkəsiyik. Siz Bakının abidələrini görürsünüz. Ölkəmizin digər yerlərinə səyahət etsəniz xalqımızın memarlıq, tarixi və dini abidələrini görərsiniz. Bu da bizim mədəni irsimizin bir hissəsidir. Ancaq müstəqil ölkə kimi biz gəncik və biz dövlətimizi, siyasi sistemimizi qurmalı idik. Hesab edirəm, qısa bir zamanda bizim ölkəmizin təcrübəsi onu nümayiş etdirib ki, inkişafa, tərəqqiyə sadiqlik, cəmiyyətin dəstəyi varsa, transformasiya uğurlu ola bilər.

Bu gün Azərbaycan beynəlxalq ictimaiyyətin nüfuzlu üzvüdür, regional müstəvidə çox müsbət rol oynayır. Bizim təşəbbüslərimiz regional əməkdaşlığın gücləndirilməsinə istiqamətləndirilib. Enerji təhlükəsizliyi ilə bağlı siyasi və iqtisadi məsələlər diqqət mərkəzindədir. İrəli sürdüyümüz təşəbbüs və layihələr regionun hüdudlarını aşıb. Bu layihələr ölkələri və qitələri birləşdirir. Enerji təhlükəsizliyi məsələsinə nəzər saldıqda aydın görünür ki, Azərbaycan burada artıq Avropanın enerji təhlükəsizliyi üçün mühüm rol oynayır. Nəqliyyat infrastrukturuna gəldikdə, biz bu gün tarixi İpək Yolunu bərpa edirik. Asiya və Avropa arasında yeni dəmir yolu əlaqəsini yaradırıq. Biz təkcə iqtisadi inkişafa və daha təkmil nəqliyyat infrastrukturuna deyil, xalqlararası təmaslara sərmayə yatırırıq. Tarixi İpək Yolu Azərbaycandan keçmişdir. Biz bu gün onu müasir texnologiyaların tətbiqi və qonşu dövlətlərin iştiraki ilə bərpa edirik. İqtisadi və sosial inkişafla bağlı bütün layihələrimiz regional əməkdaşlığı, xalqlar və ölkələr arasında qarşılıqlı anlaşmanı gücləndirir.

Bununla yanaşı, beynəlxalq arenada oynadığımız rol dünya ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir. Biz fəxr edirik ki, müstəqilliyimizin bərpasından ötən qısa müddət ərzində Azərbaycan 155 dövlətin dəstəyi ilə ən mötəbər beynəlxalq qurum olan BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilmişdir. Bu, o deməkdir ki, beynəlxalq ictimaiyyətin mütləq əksəriyyəti bizi dəstəkləmişdir. Səmimi deyə bilərəm ki, bizim heç də bu 155 dövlətin hər biri ilə fəal əlaqələrimiz yoxdur. Lakin düşünürəm ki, müstəqilliyimizin bərpasından ötən qısa müddət ərzində bizim etibarlı tərəfdaş kimi davranışımız, birgə dəyərlər və milli maraqlara əsaslanmış müstəqil mövqeyimiz ölkəmizə müsbət münasibət yaratmışdır.

Biz siyasi və iqtisadi transformasiyaya böyük sərmayə yatırmışıq. Müstəqilliyi bərpa etdikdə biz dövlətimizi qurmalı və siyasi sistemimizi transformasiya etməli idik. Bu səbəbdən siyasi və iqtisadi islahatlar paralel şəkildə aparılırdı. Biz aydın başa düşdük ki, təbii sərvətlər ölkənin transformasiyası və Azərbaycanın davamlı inkişafının təmin olunması üçün kifayət etməyəcək. Bu səbəbdən siyasi islahatlar, demokratik proses və azadlıqlarla bağlı məsələlər bizim diqqət mərkəzimizdə olmuşdur. Bu gün Azərbaycanda bütün fundamental azadlıqlar - siyasi azadlıq, media azadlığı, azad internet, din azadlığı təmin edilib. Bu isə inkişafın əsası və təməli deməkdir.

Bununla yanaşı, Azərbaycanın təbii sərvətlərinə və potensialımıza əsaslanan iqtisadi siyasət müstəqilliyimizin ilk illərində müəyyənləşdirdiyimiz məqsədlərə nail olmağa imkan vermişdir. Bu da iqtisadi müstəqillik idi. Bizim xarici borcumuz olduqca aşağı səviyyədədir - ümumi daxili məhsulun 10 faizinə bərabərdir. Yəni, biz donorlardan, sponsorlardan, ianələrdən və beynəlxalq maliyyə qurumlarının yardımlarından asılı deyilik. Halbuki biz onlarla çox fəal əməkdaşlıq edirik. Biz ölkəmizin enerji təhlükəsizliyini maksimum dərəcədə təmin edə bilmişik və bu gün biz digərlərinin enerji təhlükəsizliyini təmin edirik.

Həmçinin işsizlik və yoxsulluq kimi sosial məsələlər həll olunur. Burada çox müsbət dinamika görürük. Bu gün Azərbaycan yoxsulluq və işsizliyin ən aşağı səviyyədə olduğu ölkələrdəndir. Bu göstərici 5 faizə bərabərdir. Təbii ki, bu da cəmiyyətdə müsbət dinamika yaradır. Bu amillərin birləşməsi Azərbaycanın əhəmiyyətinin artırılmasında vacib rol oynayır. Əlbəttə ki, daha çox diqqəti daxili məsələlərə yönəldirik.

Məqsədlərimizə nail olmaq və inkişaf etmiş dövlətə çevrilmək üçün görüləcək işlərimiz çoxdur. Halbuki Davos İqtisadi Forumunun qiymətləndirməsinə əsasən iqtisadiyyatın rəqabətqabiliyyətliliyinə görə Azərbaycan dünyada 38-ci yerdədir.

⇨ 3

# digərlərinin ənənələrinə və dəyərlərinə hörmətdən başlayır



2 ⇦ Buna isə təbii sərvətlər hesabına yox, islahatlar hesabına nail olunub. Bununla yanaşı, biz xalqları daha da yaxınlaşdıran müxtəlif layihələrin təşəbbüskarıyıq. Bunlar enerji, iqtisadiyyat, siyasi əlaqələr sahələrinə, habelə humanitar sektora aiddir. Biz hər il Bakıda Beynəlxalq Humanitar Forum, Dünya Dini Liderlərinin Zirvə Görüşünü təşkil edirik. Bugünkü Forum da artıq üçüncü dəfədir təşkil edilir.

Üç həftədən, yəni, bir aydan da az vaxtdan sonra Azərbaycan ilk Avropa Oyunlarına ev sahibliyi edəcək. 2012-ci ilin sonunda qəbul edilmiş qərar çox müdrik qərar idi. Həcminə görə Yay Olimpiya Oyunlarına bərabər oyunların 2 il yarım müddətdə təşkil edilməsi böyük çağırış idi. Avropa Olimpiya Komitəsinin dünyada ilk Avropa Oyunlarının müsəlman əhaliyə malik Azərbaycanda keçirilməsi ilə bağlı qərarı son illər qəbul edilmiş ən müdrik qərarlardan biridir. Biz 6000 Avropa idmançısını bir araya gətirəcəyik. Artıq hazırlıq prosesinin yekun mərhələsindəyik. Bu, yalnız böyük idman tədbiri deyil, həm də dostluq və tərəfdaşlıq tədbiri olacaq. Bizim üçün isə bu, təbii ki, ölkəmizi və qonaqpərvərliyimizi nümayiş etdirmək baxımından yaxşı fürsət olacaq. İki ildən sonra isə biz İslam Həmrəyliyi Oyunlarını keçirəcəyik. Yəni, iki il ərzində eyni ölkədə, eyni şəhərdə həm Avropa, həm də İslam Həmrəyliyi Oyunları keçiriləcək. Hesab edirəm ki, iki il ərzində hər iki oyunun eyni ölkədə təşkil edilməsi Avropa idman tarixində nadir hal olacaq.

2008-ci ildə də "Bakı prosesi" bizim təşəbbüsümüzlə başlamışdır. Bizim təşəbbüsümüz idi ki, Avropa Şurasının mədəniyyət nazirlərinin iclasına İslam Əməkdaşlıq Təşkilatının nazirləri dəvət edilsin. Bu, ilk belə hal idi. Çünki Azərbaycan hər iki təşkilata üzv olan azsaylı ölkələrdəndir. Daha sonra - 2009-cu ildə İslam Əməkdaşlıq Təşkilatı mədəniyyət nazirlərinin iclasına Avropa Şurası mədəniyyət nazirləri dəvət edildi. Bunlar bizim təşəbbüslərimiz idi və artıq buna "Bakı prosesi" adı verilib.

Bu gün mədəniyyətlərarası və sivilizasiyalararası dialoq, multikulturalizmə aid məsələlər "Bakı prosesi"nə daxildir. Biz səylərimizi davam etdirəcəyik və 100-dən artıq dövlətdən olan nümayəndələrin Bakıya səfər edərək bu mühüm məsələləri müzakirə etməsi bizdə məqsədlərimizə nail olmaqla bağlı ruh yüksəkliyi yaradır. Biz dostluq, sülh, tərəfdaşlıq və mədəni müxtəliflik məsələlərinə töhfəmizi verməyə çalışacağıq.

Əziz dostlar, bir daha Azərbaycana xoş gəlmisiniz.

* * *

Forumda çıxış edən BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi Nassir Abdulaziz Əl-Nasser, UNESCO-nun baş direktoru İrina Bokova, İslam Əməkdaşlıq Təşkilatının baş katibinin turizm və sülh üzrə müşaviri Əmr Abdel-Qaffar, ISESCO-nun baş direktoru Əbdüləziz bin Osman Əl-Tüveycri çıxış edərək Asiya ilə Avropa arasında yerləşən Azərbaycanın özü müxtəlif irq, din, mədəniyyət və dillərdən ibarət möhtəşəm mozaika olduğunu vurğulayıblar. Dünyanı narahat edən problemlərin birgə səylərlə həllinin mümkünlüyündən danışan qonaqlar bu səyləri birləşdirməyin yollarını və üsullarını müzakirə etmək üçün Bakıda yaradılan şəraiti yüksək dəyərləndiriblər.

* * *

Daha sonra UNESCO tərəfindən Mədəniyyətlərin yaxınlaşması üzrə beynəlxalq onillik münasibətilə nəşr edilən "Fərqli fikirlərlə razılaşmaq" adlı kitabın təqdimatı olub.

Prezident İlham Əliyevin və xanımı Mehriban Əliyevanın iştirak etdikləri mərasimdə çıxış edən UNESCO-nun baş direktoru İrina Bokova bu kitabın tolerantlığa, qarşılıqlı hörmət, ləyaqət və mərhəmətə əsaslandığını bildirib.

* * *

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev çıxışında mədəniyyətlərarası dialoqun yayılması üzrə bütün fəaliyyətlərə göstərdiyi dəstəyə və töhfəyə görə Prezident İlham Əliyevə təşəkkür edib. Bildirib ki, mədəniyyətlər və sivilizasiyalar arasında dialoq və tərəfdaşlığa, habelə 2008-ci ildə Prezident İlham Əliyev tərəfindən elan edilən "Bakı prosesi"nə töhfələr vermiş Forum iştirakçılarına təqdim etmək üçün simvol hazırlanıb.

Əbülfəs Qarayev sülh və mədəniyyətlərarası dialoq üzrə "Bakı prosesi"nin simvolunu BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi Nassir Abdulaziz Al-Nasserə, UNESCO-nun baş direktoru İrina Bokovaya, İslam Əməkdaşlıq Təşkilatının baş katibi İyad bin Amid Mədəniyə, ISESCO-nun baş direktoru Əbdüləziz bin Osman Əl-Tüveycriyə və digər şəxslərə təqdim edib.

Sonda xatirə şəkli çəkdirilib.

* * *

Sonra Prezident İlham Əliyevin və xanımı Mehriban Əliyevanın adından III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak edən yüksək səviyyəli qonaqların şərəfinə nahar verilib.

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 7 noyabr tarixli 174 nömrəli qərarı ilə təsdiq edilmiş "Fəaliyyət növlərinin xüsusiyyətindən asılı olaraq xüsusi razılıq (lisenziya) verilməsi üçün tələb olunan əlavə şərtlər"də dəyişiklik edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi işçilərinin say həddinin müəyyən olunması və Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 20 iyul tarixli 544 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 25 noyabr tarixli 376 nömrəli Fərmanının 3.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 7 noyabr tarixli 174 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 11, maddə 676; 2004, № 2, maddə 115; 2005, № 9, maddə 860, № 12, maddə 1234; 2006, № 2, maddələr 204, 205, № 9, maddə 822, № 12, maddə 1159; 2007, № 8, maddələr 849, 857, № 10, maddə 1025; 2008, № 1, maddə 37, № 10, maddə 928, № 12, maddələr 1110, 1114; 2009, № 1, maddələr 22, 32, № 2, maddə 156, № 4, maddə 279, № 8, maddə 670, № 9, maddələr 739, 754, № 12, maddə 1078; 2010, № 3, maddə 264; 2011, № 1, maddə 63; 2012, № 9, maddə 931; 2013, № 2, maddə 203, № 6, maddə 735; 2014, № 10, maddə 1290) ilə təsdiq edilmiş "Fəaliyyət növlərinin xüsusiyyətindən asılı olaraq xüsusi razılıq (lisenziya) verilməsi üçün tələb olunan əlavə şərtlər"ə aşağıdakı məzmunda 22.4-cü bənd əlavə edilsin:

"22.4. xarici ölkələrdə yerləşən ziyarətgahlara turlar nəzərdə tutan turizm fəaliyyətinə xüsusi razılığın (lisenziyanın) rəsmiləşdirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəyi.".

*Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə*
*Bakı şəhəri, 23 aprel 2015-ci il*

№ 119

## Mübariz Qurbanlı: "Cahillik, savadsızlıq olan yerdə radikalizm yaranır"

**"Bəşəriyyət tarixində din o zaman radikalizm və ekstremizm çalarları qazanır ki, din birbaşa siyasətə qarışır. Dövlət teokratik hakimiyyət forması alır. Din vicdan azadlığı və mənəvi məfhum kimi qalsaydı, insanlar din pərdəsi altında bir-biri ilə mübarizə etməzdilər".**



APA-nın xəbərinə görə, bu sözləri Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində keçirilən "Zorakı ekstremizmə qarşı mübarizə: plüralizm təşviqində və müştərək rifah halının yüksəldilməsində dini liderlərin rolu" mövzulu plenar iclasda çıxışı zamanı deyib.

Komitə sədri bildirib ki, bu gün yalnız din pərdəsi altında deyil, eyni zamanda ayrı-ayrı dinlərin öz içərisində də mübarizə gedir. Onun fikrincə, dini maarifçiliyə, təhsilə diqqət yetirilməlidir. Cahillik, savadsızlıq olan yerdə mütləq radikalizm və bunun fəsadları özünü büruzə verir.

M.Qurbanlı vurğulayıb ki, bu gün Azərbaycan dini tolerant ölkə kimi nümunə olacaq səviyyədədir. Onun sözlərinə görə, ölkədə dini cərəyanların ayrı-ayrı qolları sərbəst şəkildə fəaliyyət göstərir: "Dövlətlər də dinə münasibətdə ayrı-seçkilik salmamalıdır. Bizim dövlətimiz hər il büdcədən müxtəlif dini icmalara köməklik göstərir. Azərbaycanda əhalinin 96%-i müsəlmandır, yalnız 4%-i müxtəlif dinlərin nümayəndələridir. Buna baxmayaraq, bütün dinlər üçün ölkədə lazımi şərait yaradılıb".

# Mübariz Qurbanlı: "Azərbaycanda dini sabitliyi poza biləcək qrup, cərəyan yoxdur"

"Azərbaycanda dini baxımdan sabitlik mövcuddur, ona görə də hansısa dini qrupun, cərəyanın qarşıdan gələn Avropa Oyunlarına xələl gətirmə ehtimalı sıfıra bərabərdir".

APA-nın xəbərinə görə, bunu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib.

M.Qurbanlı bildirib ki, aparılan profilaktik işlər, xüsusilə hüquq-mühafizə orqanlarının həyata keçirdiyi tədbirlər bu sahədə sabitliyin tam bərqərar olmasına gətirib çıxarıb.

"Azərbaycanda dini radikalizmin ayrı-ayrı elementləri nəzərə çarpsa da, bu, ictimai, siyasi, mənəvi həyata təsir etmək imkanında deyil", - deyə M. Qurbanlı qeyd edib.

O, Avropa Oyunlarının Azərbaycan üçün tarixi, psixoloji, siyasi, iqtisadi və mənəvi əhəmiyyəti olduğunu vurğulayıb: "Bu oyunların ilk dəfə Azərbaycanda keçirilməsi hər bir vətəndaş üçün qürurverici hadisədir. Avropa Oyunlarının bizim ölkədə keçirilməsi, eyni zamanda bizi istəməyən, bizə qarşı olan dairələrə, o cümlədən bizimlə düşmənçilik edən Ermənistan və erməni lobbisinə qarşı ideoloji əhəmiyyət kəsb edən hadisədir".

M.Qurbanlının sözlərinə görə, Azərbaycanda dini sabitliyi pozacaq hər hansı qrup, cərəyan mövcud deyil: "Avropa oyunları yüksək səviyyədə keçiriləcək, bu oyunları pozmaq istəyənlərin cəhdləri baş tuta bilməz".

# Dövlət Komitəsinin kollektivi Fəxri xiyabanı ziyarət edib

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin kollektivi mayın 10-da Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 92-ci il dönümü münasibəti ilə Fəxri xiyabana gələrək müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib. Komitə əməkdaşları Ulu Öndərin məzarı önünə gül dəstələri qoyublar.

# Dövlət Komitəsində görüşlər

(QISA XRONİKA)

Mayın 1-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı ölkəmizdə səfərdə olan İtaliyanın Coğrafiya Cəmiyyətinin nümayəndələri ilə görüşüb.

Görüşdə Azərbaycanda mövcud olan tolerantlıq ənənələri, multikultural mühit haqqında məlumat verilib, ölkəmizdə bu sahədə görülən işlərin beynəlxalq miqyasda yüksək qiymətləndirildiyini vurğulanıb, qarşılıqlı əməkdaşlığın perspektivləri və gələcəkdə birgə layihələrin həyata keçirilməsi məsələləri müzakirə edilib.

Qonaqlara Azərbaycanda mövcud olan tarixi, mədəni abidələr haqqında kitablar təqdim edilib.

***

Mayın 13-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səfiri Robert Sekutanı qəbul edib.

Azərbaycanda din-dövlət münasibətlərinin Konstitusiya və "Dini etiqad azadlığı haqqında" Qanunla tənzimləndiyini deyən Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, ölkəmizdə məscid, sinaqoq və kilsələr insanların ixtiyarına verilib, ibadət evlərinin bir qisminin təmir və bərpası Azərbaycan hökumətinin hesabına həyata keçirilir.

Səfir kimi namizədliyi irəli sürülərkən ABŞ Senatındakı çıxışında ölkəmizin yüksək tolerantlıq nümunəsi olduğunu xüsusi vurğuladığını bildirən qonaq iki ölkə arasında münasibətlərin inkişaf etdirilməsi üçün səylə çalışdığını deyib.

***

Mayın 15-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı İranın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Möhsün Pakayini qəbul edib.

Görüşdə Dövlət Komitəsinin sədrinin İran İslam Respublikasına rəsmi səfərinin müsbət nəticələrindən bəhs edilib, dini radikalizmə və ekstremizmə qarşı mübarizədə birgə layihələr həyata keçirmək, dini təhsil sahəsində təcrübə mübadiləsi və İslam dini ilə bağlı maarifçilik fəaliyyətinin genişləndirilməsi barədə fikir mübadiləsi aparılıb, Azərbaycan ilə İran arasında qarşılıqlı etimad və dostluq münasibətlərinin bundan sonra da davam edəcəyinə əminlik ifadə olunub.

***

Mayın 20-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı ISESCO-nun Baş katibi Əbdüləziz bin Osman əl-Tüveycrini qəbul edib.

Bu il may ayının 15-də ISESCO-nun Rabat şəhərində yerləşən baş qərargahında Dövlət Komitəsi tərəfindən keçirilən beynəlxalq konfrans və sərginin təşkilinə verdiyi dəstəyə görə Əbdüləziz bin Osman əl-Tüveycriyə minnətdarlığını bildirən M.Qurbanlı qeyd edib ki, istər beynəlxalq təşkilat olaraq ISESCO-nun, istərsə də şəxsən Əbdüləziz bin Osman əl-Tüveycrinin Azərbaycanla, eyni zamanda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında böyük xidmətləri var.

Dövlət Komitəsinin fəaliyyəti haqda danışan Mübariz Qurbanlı dini maarifləndirmə sahəsində görülən işlərdən danışıb, Prezident İlham Əliyevin təhsil və maarifləndirmə işinə xüsusi diqqət yetirdiyini diqqətə çatdırıb.

Ölkəmizi çox sevdiyini deyən rəsmi qonaq Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasını özünə borc bildiyini vurğulayıb, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin keçdiyi inkişaf yolunu təqdir etdiyini, Azərbaycanın bütün dünya ölkələrinə parlaq model olduğunu və bunun dünyaya nümayiş etdirməyin zəruriliyini bildirib. ISESCO-nun Baş katibi Dövlət Komitəsi ilə əməkdaşlığın gələcəkdə də davam etdirilməsinin, üzv dövlətlərlə birgə layihələr həyata keçirilməsinin vacibliyini qeyd edib.



# Mingəçevirdə "Ənənəvi İslam dəyərləri və müasirlik" mövzusunda regional konfrans təşkil edilib

Mayın 14-15-də Mingəçevirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və şəhər icra hakimiyyətinin birgə təşkilatçılığı ilə "Ənənəvi İslam dəyərləri və müasirlik" mövzusunda regional konfrans keçirilib. Tədbirdə bölgədə fəaliyyət göstərən dini icmaların sədrləri, imam və axundlar, ilahiyyatçılar iştirak ediblər.

Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək, abidəsi önünə gül-çiçək dəstələri düzüblər.

Tədbirdə çıxış edən Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov maarifləndirmə məqsədilə keçirilən konfransın əhəmiyyətindən danışıb, şəhərdə qeydiyyatdan keçən dini icmaların hamısına fəaliyyət göstərmələri üçün hər cür şərait yaradıldığını bildirib. Milli-mənəvi dəyərlərimizin qorunmasının vacibliyini qeyd edən Niyazi Bayramov dövlətin bu sahəyə qayğısını xüsusi vurğulayıb. Diqqətə çatdırılıb ki, dini etiqad azadlığının təmin olunması, şəhərdə dini icmalar arasında qarşılıqlı əlaqələrin yüksək səviyyədə qurulması üçün lazımi tədbirlər həyata keçirilir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı ölkəmizdə dövlət-din münasibətləri ilə bağlı Ümummilli Lider Heydər Əliyevin həyata keçirdiyi siyasətin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, Azərbaycanda dinlərarası münasibətlərin yüksək səviyyədə olduğunu, hər kəsin dini etiqad azadlığının qorunduğunu bildirib. M.Qurbanlı ölkəmizdə tarixən tolerantlıq mühitinin, dinlər arasında qarşılıqlı hörmət və etimada əsaslanan əməkdaşlıq münasibətlərinin hökm sürdüyünü, dövlət-din münasibətlərinin zəngin milli tarixi ənənəyə əsaslandığını və beynəlxalq hüquqi normalarla tənzimləndiyini qeyd edib. Komitə sədri deyib: "Milli-mənəvi dəyərlərimizin tərkib hissəsi olan, o cümlədən ölkə əhalisinin əksəriyyətinin etiqad etdiyi İslam dininin və İslam mədəniyyətinin təbliği prioritet məsələlərdəndir. Azərbaycan dünyaya inteqrasiya edən ölkədir, amma bununla yanaşı, biz öz milli-mənəvi dəyərlərimizi də qoruyuruq. Hazırda dünyada İslam dinini radikalizmə sürükləmə meyilləri artmaqdadır. Çünki bu din haqqında yayılan yanlış məlumatlar insanların düşüncələrində mənfi fikir yaradır. Buna görə də dini maarifləndirmə işinə daha diqqətli yanaşılmalı, bu sahədə görülən işlər davam etdirilməlidir.

Dövlət Komitəsinin hüquq mühafizə orqanları ilə birgə həyata keçirdiyi tədbirləri xüsusi vurğulayan Mübariz Qurbanlı radikalizmin qarşısının alınmasında bu tədbirlərin böyük əhəmiyyəti olduğunu diqqətə çatdırıb. O bildirib ki, ölkəmizdə dini radikalizmin sosial bazası yoxdur. Həyata keçirilən tədbirlər nəticəsində radikalizmə meyilli qrupların iqtisadi və ideoloji əsasları tamamilə iflasa uğrayıb. Radikalizmlə mübarizədə Dövlət Komitəsi cəmiyyətin bütün strukturları, o cümlədən qeyri-hökumət təşkilatları və ictimai birliklərlə birgə bir sıra layihələr həyata keçirir. Komitə sədri qeyd edib ki, biz milli mənəvi, dini adət-ənənələrimizi, tolerantlıq mühitimizi qorumalı və yaşatmalıyıq.

Konfransda iştirak edən Qafqaz Müsəlmanları İdarəsinin bölgə qazısı Əli Məmmədov, Azərbaycan Müəllimlər İnstitutunun Mingəçevir filialının dekanı Nizami Zeynalov ölkəmizdəki dövlət-din münasibətlərindən bəhs edərək, dini maarifləndirmə işinin gücləndirilməsinin zəruriliyini vurğulayıblar.

Konfransın açılış nitqlərindən sonra DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarovun moderatorluğu ilə "Dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği" mövzusunda ilk panel keçirilib. Paneldə DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov "Milli-mənəvi dəyərlərimiz və ona qarşı təhdidlər" mövzusunda məruzəsi dinlənilib. Sonra məruzə ətrafında müzakirələr aparılıb.

Konfrans növbəti gün işini plenar iclasla davam etdirib. İclasda "Ənənəvi İslamın təbliği – dini radikalizmlə mübarizə vasitəsi kimi" və "Zərərli dini cərəyanlar və onların təbliğat metodları" mövzusunda məruzələr dinlənilib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı konfransdan sonra şəhərdəki Heydər məscidində dindarlar və icma üzvləri ilə görüşüb.

# Komitə sədri Mübariz Qurbanlı İranda rəsmi səfərdə olub

Mayın 2-5-də Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının rəhbərlik etdiyi nümayəndə heyəti İran İslam Mədəniyyəti və Əlaqələri Təşkilatının sədri Əbuzər İbrahim Turkmanın dəvəti ilə bu ölkəyə rəsmi səfərdə olub.

Komitə sədri səfər çərçivəsində mayın 3-də İranın Mədəniyyət və İslami Əlaqələr Təşkilatının sədri İbrahim Türkman ilə görüşüb. Dəvətə görə təşəkkürünü bildirən



M.Qurbanlı deyib ki, Azərbaycan və İran xalqları eyni tarixi köklərə və adət-ənənəyə sahibdirlər. Ölkələrimizin prezidentləri arasında yaxın dostluq münasibətləri mövcuddur. Azərbaycan Prezidenti xarici siyasətdə İranla əlaqələrin genişləndirilməsinə xüsusi önəm verir. Məhz prezidentlərin siyasi iradəsinin nəticəsidir ki, tarixən qonşu olan Azərbaycan ilə İran arasındakı əlaqələr yüksələn xətlə inkişaf edir. Artıq iqtisadi, siyasi, mədəniyyət sahələrində nəzərə çarpacaq dərəcədə yaxınlaşma müşahidə edilir. Bunlarla yanaşı, hər iki xalqın eyni dinə mənsub olması din sahəsində də əlaqələrin inkişaf etdirilməsi zərurətini meydana gətirib. Bu baxımdan din xadimlərinin və müvafiq dövlət qurumlarının qarşılıqlı səfərləri və mövcud problemlərin müzakirə edilərək aradan qaldırılması hər iki dövlətin maraqlarına uyğundur.

Komitə sədri qeyd edib ki, rəsmi Tehranla Bakı beynəlxalq təşkilatlar çərçivəsində yaxın əməkdaşlıq edirlər. İslam Əməkdaşlıq Təşkilatının bütün tədbirlərində Azərbaycan Ermənistan tərəfindən işğal edilmiş Dağlıq Qarabağın azad edilməsi məsələsini gündəliyə gətirərkən İranın dəstəyini hiss edib. Azərbaycan Prezidenti də birmənalı şəkildə bəyan edib ki, rəsmi Bakı heç bir zaman öz ərazisindən İrana qarşı istifadə olunmasına yol verməyəcək.

Bildirilib ki, son vaxtlar dünyanın bəzi regionlarında islamafobiya halları artmışdır. Bəzi qüvvələr İslamı olduğu kimi deyil, vəhşiliyi təbliğ edən din kimi qələmə verməklə öz maraqlarını güdürlər. Yaxın Şərqdə baş verən bəzi münaqişəli siyasi proseslər narahatlıq doğurmaya bilməz. İslam dini adından istifadə edən radikal qruplaşmalar böyük qüvvələrin əlində oyuncağa çevrilərək əhaliyə zülm edirlər. Bu kimi halların ölkələrimizə yayılmaması üçün qarşılıqlı fəaliyyət göstərmək zəruridir.

M.Qurbanlı nəzərə çatdırıb ki, hər iki ölkənin din xadimləri ilə yanaşı, dövlət qurumları da İslamın düzgün təbliğatını aparmalı və gənclərin yanlış təbliğata uymasının qarşısını almalıdırlar. Bu istiqamətdə Azərbaycanda həyata keçirilən işlər haqqında məlumat verən Komitə sədri bildirib ki, dövlətimiz yeni məscidlər inşa edir, köhnə məscidləri bərpa edərək din xadimlərinin istifadəsinə verir, onların ibadət etməsi üçün geniş imkanlar yaradır. İslam dini insanları düzgün əxlaqa, saf həyat tərzinə dəvət edir. Bu dinin radikal cərəyanlar tərəfindən gənclərə təhrif olunmuş şəkildə çatdırılmasının qarşısı birgə əməkdaşlıqla alınmalıdır.

Dəvətini qəbul edib İrana səfər etdiyinə görə M.Qurbanlıya təşəkkür edən İbrahim Türkman bildirib ki, İran hər zaman radikal dini qruplaşmalarla mübarizə aparır və bu halların ölkədə yayılmasının qarşısını qətiyyətlə alır.

Bakıya səfərini xatırlayan İ.Türkman Azərbaycanın inkişafının İranı sevindirdiyini nəzərə çatdırıb: "Eyni dinə mənsub olan xalqların əlaqələrinin daha da möhkəmlənməsini təmin etmək lazımdır ki, inanclara xələl gətirilməsinin qarşısı alınsın. İran Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıyır və ona hörmətlə yanaşır. Bəzi qüvvələr iki qardaş dövlətin münasibətlərinə ziyan vurmağa çalışırlar. Odur ki, biz qarşılıqlı faydalı əməkdaşlıqla bu qüvvələrin istəklərinin həyata keçməsinə imkan verməməliyik".

Azərbaycanın İrandakı səfiri Cavanşir Axundovun da iştirak etdiyi görüşdə dini təhsil sahəsində əməkdaşlıq, regiondakı siyasi vəziyyət və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı İrana səfəri çərçivəsində mayın 3-də İran İslam İnqilabının Ali Rəhbərinin katibliyinin beynəlxalq əlaqələr üzrə müavini Ayətullah Möhsen Qumi ilə görüşüb.

Görüşə görə təşəkkürünü bildirən M.Qurbanlı deyib ki, din cəmiyyətin ictimai-siyasi həyatında mühüm rol oynayır. Sovet İttifaqı nə qədər çalışsa da dini insanların məişətindən çıxara bilmədi.

Müstəqil Azərbaycanda dinə göstərilən dövlət qayğısından danışan Komitə sədri qeyd edib ki, hazırda ölkəmizdə 2 min məscid fəaliyyət göstərir. Qafqazda ən böyük məscid Prezident İlham Əliyevin göstərişi ilə Bakıda inşa edilən Heydər məscididir. Burada eyni vaxtda 4 min adamın ibadət etməsi üçün şərait yaradılıb. Yalnız ilahiyyat təhsili almış savadlı din xadimləri məscidlərdə ibadətə dair söhbətlər apararaq İslam dinini düzgün təbliğ edirlər. İran ilə Azərbaycanın mədəni və dini bağlılığı var. Bu faktı nəzərə alan İran İslam İnqilabının Ali rəhbəri Ayətullah Seyid Əli Xamneyi də Azərbaycana hər zaman yaxşı münasibət bəsləyib və hər iki xalqın daha da yaxınlaşmasını tövsiyə edib.

M.Qurbanlı nəzərə çatdırıb ki, Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycanın Dağlıq Qarabağ ərazisi işğal altındadır. Təəssüf ki, ermənilər bu ərazilərdə digər mədəni abidələr kimi, məscidlərə qarşı da hörmətsiz yanaşırlar. Ermənilər tərəfindən işğal edilmiş rayonlardakı məscidlər təsərrüfat işləri üçün istifadə edilir. Bu, təkcə Azərbaycana qarşı deyil, bütün İslam dünyasına hörmətsizlikdir.

Komitə sədri bildirib ki, ölkələrimiz zəngin təbii ehtiyatlara malikdir. Bu sərvətləri ələ keçirməyə çalışan qüvvələr iki qardaş və dost ölkə arasında nifaq salmaq istəyirlər. Buna cavab olaraq daha yaxın əməkdaşlıq əlaqələri qurmaq zəruridir.

M.Qurbanlı M.Qumini Bakıya səfərə dəvət edib.

Azərbaycanın dövlət və din xadimlərini İranda görməkdən məmnun olduğunu bildirən M.Qumi deyib ki, İran İslam İnqilabının Ali rəhbəri müsəlman ölkələri ilə əlaqələrin genişlənməsinə xüsusi önəm verir: "Azərbaycan dost və qardaş ölkədir. Biz hər zaman Azərbaycanı dəstəkləməyə hazırıq".

M.Qumi nəzərə çatdırıb ki, İslam inqilabından sonra İranda insan hüquqları yüksək səviyyədə qorunmağa başlanıb. Qadınların hüquqları isə xüsusilə diqqət mərkəzindədir. Hazırda İranın ali təhsil müəssisələrində təhsil alanların 63 faizi, dövlət idarələrində çalışanların isə 30 faizini qadınlar təşkil edir.

"İslam insanı inkişafa və tərəqqiyə çağıran dindir. Lakin onun əleyhinə çox mənfi təbliğat aparılır. Bu təbliğatın qarşısını qarşılıqlı əməkdaşlıqla ala bilərik", - deyə M.Qumi vurğulayıb.



Azərbaycanın İrandakı səfiri Cavanşir Axundovun da iştirak etdiyi görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı İrana rəsmi səfəri çərçivəsində mayın 4-də bu ölkənin xarici işlər nazirinin müavini İbrahim Rəhmipur ilə görüşüb.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 1994-cü ildə ilk dəfə İrana rəsmi səfər edərək iki qonşu ölkə arasında əlaqələrin genişləndirilməsinin əsasını qoyduğunu vurğulayan M.Qurbanlı bildirib ki, Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin ötən il İrana rəsmi səfəri ölkələrimiz arasında qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin bütün sahələrdə daha da dərinləşdirilməsi üçün geniş imkanlar açıb. Məhz Azərbaycan və İran prezidentlərinin siyasi iradələrinin nəticəsidir ki, bu gün iki ölkə arasındakı münasibətlər yüksələn xətlə inkişaf edir. Beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıqla yanaşı, rəsmi Bakı ilə Tehran arasında ikitərəfli əlaqələr də möhkəmlənir.

Hər iki ölkənin siyasi rəhbərliyi eyni tarixə və milli dəyərlərə malik olan xalqlarımızın maraqlarına uyğun siyasət yürüdürlər. Bu siyasətin əsasını isə mehriban qonşuluq, dostluq və qardaşlıq münasibətləri təşkil edir.

Səfər çərçivəsində keçirdiyi görüşlər haqqında məlumat verən M.Qurbanlı regiondakı geosiyasi vəziyyət nəzərə alınaraq Azərbaycan ilə İran arasında din sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyini diqqətə çatdırıb.

Azərbaycanda din-dövlət münasibətlərindən danışan Komitə sədri qeyd edib ki, bu sahədə əməkdaşlıq etməklə yüksək səviyyəli dini kadrlar yetişdirmək və təcrübə mübadiləsi aparmaq olar. O, İslamın humanist din olmasının gənclərə çatdırılması baxımından savadlı din xadimlərinin yetişdirilməsinin zəruriliyini qeyd edib. Əks təqdirdə radikal dini qruplaşmalar gəncləri öz tərəflərinə çəkərək onları terrorçuluğa və digər münaqişələrə cəlb edə bilərlər. Yaxın Şərqdə baş verən münaqişələr onu göstərir ki, İslam dinindən sui-istifadə edilir. Bu hallar dünya ictimaiyyətində İslam dini barədə yanlış fikrin formalaşmasına səbəb olur. Bu baxımdan Azərbaycan ilə İran arasında din sahəsində əməkdaşlığın inkişafı zəruridir.

İranın din sahəsində Azərbaycan ilə əməkdaşlıq etməyə hər zaman hazır olduğunu bildirən İ.Rəhmipur qeyd edib ki, rəsmi Tehran radikal dini qrupların fəallaşmasının qarşısını almaq istiqamətində addımlar atır. Azərbaycan-İran münasibətlərindən danışan nazir müavini bildirib ki, ölkələrimiz arasında həlli mümkün olmayan problem yoxdur. İranda yaşayan azərbaycanlılar cəmiyyətin ictimai-siyasi həyatında fəal iştirak edirlər. Yüksək dövlət vəzifələrində çalışan azərbaycanlıların da sayı çoxdur. Bəzi qüvvələr iki dost ölkənin münasibətlərinə xələl gətirərək öz mənafelərini güdməyə çalışırlar. Lakin onlar buna nail ola bilməyəcəklər. Xalqlarımızın yaxınlığı və dövlət rəhbərlərinin müdrikliyi buna imkan verməyəcək.

Nazir müavini qeyd edib ki, İran Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini tanıyır və ona ehtiramla yanaşır.

Azərbaycanın İrandakı səfiri Cavanşir Axundovun da iştirak etdiyi görüşdə İranda təhsil alan azərbaycanlı tələbələr və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Həmin gün Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı İranın Milli Kitabxanası ilə tanış olub, kitabxananın sədri Əmir Salehi və "Əhli-Beyt" təşkilatının sədri Ayətullah Əxtəri ilə görüşüb.

⇨ 6

# Komitə sədri Mübariz Qurbanlı İranda rəsmi səfərdə olub



5 ⇦ Görüşlərdə radikal dini cərəyanların ölkələrimizin ərazisində yayılmasının qarşısının alınması yolları ətrafında müzakirələr aparılıb.

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı İran İslam Respublikasına rəsmi səfəri çərçivəsində mayın 5-də Qum şəhərinə gələrək Əl-Mustafa Beynəlxalq Universitetinin rektoru Əlirza Ərafi ilə görüşüb.

M.Qurbanlı deyib ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 1994-cü ildə müstəqil Azərbaycanın Prezidenti kimi ilk dəfə İrana rəsmi səfər etməsi ilə iki ölkə arasında əlaqələrin inkişafı üçün zəmin yarandı. Təhsil sahəsində də qarşılıqlı əməkdaşlıq əlaqələrinin mövcudluğunu vurğulayan Komitə sədri bu Universitetdə azərbaycanlıların təhsil almalarının sistemli şəkildə həyata keçirilməsinin zəruriliyini bildirib. Qeyd edib ki, gənclərin xaricdə dini təhsil almaları qanunla tənzimlənməlidir.

Azərbaycanda da gənclərə dini təhsil verildiyini deyən M.Qurbanlı Bakıda İslam Universitetinin, Bakı Dövlət Universitetində ilahiyyat fakültəsinin fəaliyyəti barədə məlumat verib.

Rəhbərlik etdiyi ali təhsil müəssisəsi haqqında danışan Ə.Ərafi deyib ki, Əl-Mustafa Universitetində 30 min tələbə təhsil alır. Universitet Avropanın ali təhsil ocaqları ilə yaxın əməkdaşlıq edir. Burada gənclər dini təhsillə yanaşı, dünyəvi elmləri də öyrənirlər. Müasir dünyada çox gərgin proseslərin baş verdiyini diqqətə çatdıran Ə.Ərafi qeyd edib ki, elmi və düşüncəsi zəif olan gənclər zərərli təbliğata uyaraq radikal dini qruplaşmalara qoşulurlar. Belə halların qarşısını qarşılıqlı əməkdaşlıq və gənclərə səviyyəli elm öyrətməklə almaq olar.

Görüşdə dini təhsillə bağlı İranda və Azərbaycanda fəaliyyət göstərən müvafiq təhsil müəssisələri arasında əlaqələrin yaradılması, tələbə və müəllim mübadiləsi haqqında fikir mübadiləsi aparılıb.

Sonra M.Qurbanlı Əl-Mustafa Beynəlxalq Universitetində təhsil alan azərbaycanlı tələbələrlə görüşüb, onların problemləri ilə maraqlanıb, fikirlərini dinləyib və dini təhsillə bağlı Azərbaycanın qanunvericiliyi haqqında məlumat verib.

Mübariz Qurbanlı Qum şəhərində İranın tanınmış din xadimi, islamşünas alim (müctəhid) Cəfər Sübhani ilə də görüşüb. Görüşdə İslam alimlərinin elmi düşüncələri (fətvaları), radikal dini cərəyanlarla ideoloji səviyyədə mübarizə metodları və digər məsələlər müzakirə edilib.

Görüşdə Qafqaz Müsəlmanları İdarəsinin İrandakı nümayəndəsi Şamil Rəsulov da iştirak edib.

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) İmişli Rayon İcra Hakimiyyətinin dəstəyi ilə mayın 19-20-də İmişli rayonundakı Heydər Əliyev Mərkəzində "Ənənəvi İslam dəyərləri və müasirlik" mövzusunda iki günlük regional konfrans keçirilib.**




# İmişlidə "Ənənəvi İslam dəyərləri və müasirlik" mövzusunda regional konfrans keçirilib




Tədbirdə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, İmişli Rayon İcra Hakimiyyətinin başçısı Vilyam Hacıyev, Milli Məclisin deputatı Çingiz Qənizadə, Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayədəsi Adıgözəl Bəşirov, İmişli, Saatlı, Sabirabad və Beyləqan rayonlarından dini icmaların rəhbərləri, din xadimləri, ziyalılar və gənclər iştirak ediblər.

Konfrans iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstələri düzüblər.

Tədbirdə çıxış edənlər dövlət-din münasibətlərindən, ölkəmizin tolerantlıq ənənələrindən, xalqımızın bütün dinlərə və konfessiyalara dözümlü münasibətindən, cəmiyyətdə sabitliyin möhkəmləndirilməsində belə keyfiyyətlərin əhəmiyyətindən danışıblar.

DQİDK sədri Mübariz Qurbanlı konfransda çıxış edərək, ümumbəşəri dəyərlərə münasibətdə zəngin təcrübəyə malik Azərbaycanda İslamın tarixi, milli-mənəvi dəyərlərimizdə yeri, bu dəyərlərin yad təsirlərdən qorunması ilə əlaqədar məsələlərdən bəhs edib. Komitə sədri geosiyasi maraqların getdikcə şiddətlənməsinin təhlükəli həddə çatdığını, belə bir şəraitdə dünyada radikalizm meyillərinin güclənərək dəhşətli nəticələrə səbəb olduğunu vurğulayıb. O bildirib ki, bu gün bəzi müsəlman ölkələrində baş verən hadisələr, silahlı münaqişələr məhz geosiyasi maraqların toqquşmasından irəli gəlir. Bəzi qüvvələr İslamı siyasiləşdirərək daxildə qarışıqlıq yaratmaqla onu gözdən salmağa çalışır, terrorla əlaqələndirmək istəyirlər. Komitə sədri bu cür hallara qarşı birgə mübarizənin əhəmiyyətini, bu sahədə maarifləndirmənin zəruri olmasını önə çəkib. Qeyd edib ki, ölkə Prezidenti cənab İlham Əliyev Bakıda III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılışında etdiyi çıxışda təhsil və maarifçilik işinə diqqət yetirməyin vacibliyini xüsusi vurğulayıb. Dövlət başçısı bildirib ki, təhsil gələcəyin, inkişafın yoludur. Elə inkişaf etmiş ölkələr var ki, onlar tərəqqini təbii sərvətlərlə deyil, təhsil, elm və texnologiyaların inkişafı sayəsində təmin ediblər. Eyni zamanda, təhsil ekstremizmə, radikalizmə, fundamentalizmə, terrorçuluğa qarşı təminatdır. Bu, müasir həyatın təhlükəli elementlərinə qarşı sığortadır.

Konfransda çıxış edən millət vəkili Çingiz Qənizadə, Qafqaz Müsəlmanları idarəsinin səlahiyyətli nümayəndəsi Adıgözəl Bəşirov ölkəmizdəki dövlət-din münasibətlərindən bəhs edərək, dini maarifləndirmə işinin gücləndirilməsinin zəruriliyini vurğulayıblar.

Konfransın açılışından sonra DQİDK sədrinin müavini Gündüz İsmayılovun moderatorluğu ilə "Dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği" mövzusunda ilk panel keçirilib. Paneldə DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarovun "Dini radikalizm və onunla mübarizə üsulları", Komitənin Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərovun "Milli-mənəvi dəyərlərimiz və ona qarşı təhdidlər" mövzusunda məruzələri dinlənilib. Sonra məruzələr ətrafında müzakirələr aparılıb.

Konfransda vurğulanıb ki, ölkəmizdə mövcud olan dini tolerantlıq və dövlət-din münasibətləri digərləri üçün nümunədir. Bu münasibətlər uzun illərdən bəri zamanın sınağından çıxaraq bu günümüzədək çatıb, keçmişimizdən bizə yadigar qalıb. Bu ənənəni qoruyub saxlamaq hər kəsin, xüsusilə də din xadimlərinin, ziyalıların və gənclərin mənəvi borcudur.

Həmin gün M.Qurbanlı İmişlidəki "Cümə" məscidində dindarlarla görüşüb, məscidə hədiyyə təqdim edib.

* * *

Konfransın ikinci günündə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Aran, Komitə sədrinin müavini Gündüz İsmayılov, eləcə də rayon ictimaiyyətinin nümayəndələri, ziyalılar, gənclər və orta məktəb şagirdləri iştirak ediblər.

Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlının moderatorluğu ilə "Ənənəvi dini dəyərlərimiz və gənclik" mövzusunda keçirilən plenar iclasda DQİDK sədrinin müavini Gündüz İsmayılovun "Milli-mənəvi dəyərlərimiz və müasir gənclik", Komitənin Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərovun "Milli-mənəvi dəyərlərimiz və ona qarşı təhdidlər", Dinşünaslıq ekspertizası şöbəsinin müdir müavini Cahandar Əlifzadənin "Dövrün aktual problemləri: erkən nikah və zərərli vərdişlər" mövzusunda məruzələri dinlənilib. Çıxış edənlər gənclərin maariflənməsi və radikal qüvvələrin təsiri altına düşməməsi üçün dini maarifənmənin aparılmasının, gənclərə, orta məktəb şagirdlərinə milli-mənəvi dəyərlərimizin aşılanmasının vacibliyindən danışıblar.

Konfransın sonunda iştirakçılara kitablar paylanıb.

# "Heydər Əliyev siyasəti: Tolerantlıq" kitabının təqdimatı olub

Mayın 8-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə "Heydər Əliyev siyasəti: Tolerantlıq" kitabının təqdimatı keçirib.

Təqdimat mərasimində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəhbərliyi, dini konfessiyaların rəhbərləri və təmsilçiləri, dini icmalar, Dinşünaslıq komissiyasının üzvləri, "Heydər Əliyev siyasəti və milli-mənəvi dəyərlərimiz" mövzusunda keçirilmiş məqalə müsabiqəsinin münsifləri, müsabiqənin qalibləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.



Tədbiri Komitənin sədri Mübariz Qurbanlı açaraq dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı xidmətlərindən danışıb. O, Ulu Öndərin həyata keçirdiyi siyasətdə tolerantlığın hər zaman diqqət mərkəzində olduğunu vurğulayıb. Qeyd edib ki, ölkəmizdə bütün konfessiyalara eyni səviyyədə münasibət Ümummilli Liderin tolerantlığa verdiyi önəmi bir daha göstərir. Tolerantlıq siyasətinin ən bariz nümunələrindən biri də odur ki, ümumilli tədbirlərdə bütün dini konfessiyaların nümayəndələri iştirak edirlər. Konfessiyalar, xüsusilə ermənilərin Azərbaycana qarşı apardığı çirkin təbliğatların qarşısının alınmasında ölkəmizin mövqeyini müdafiə edirlər.

Komitə sədri diqqətə çatdırıb ki, Heydər Əliyev irsinin öyrənilməsi və təbliği çox önəmlidir. Çünki Heydər Əliyev tarixi şəxsiyyət və tarixi yaradan şəxsiyyətdir. "Elm və təhsil" nəşriyyatında çap olunmuş kitabda müasir Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyevin 1993-2003-cü illərdə dövlət-din münasibətləri, milli-mənəvi dəyərlərin qorunması, tolerantlıq və multikulturalizm ideyalarını özündə əks etdirən dəyərli çıxışları, nitqləri, görüşləri və təbrikləri yer alıb.

Sonra Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini Hacı Salman Musayev, Bakı şəhəri Dağ Yahudiləri icmasının sədri Milix Yevdayev, Rus Provaslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasiyasının katibi Elnur Əfəndiyev, Avropa Yahudilərinin Bakı dini icmasının sədri Gennadi Zelmanoviç, Azərbaycan Respublikasının Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili, Bakı Dövlət Universiteti İlahiyyat fakültəsinin müəllimi Aqil Şirinov Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Aran çıxış edərək Heydər Əliyev şəxsiyyətinin böyüklüyündən danışıb və nəşrin əhəmiyyətini vurğulayıblar.

Sonda DQİDK-nın dini icmalar arasında ənənəvi olaraq təşkil etdiyi "Heydər Əliyev siyasəti və milli-mənəvi dəyərlərimiz" mövzusunda məqalə müsabiqəsinin qalibləri mükafatlandırılıb.

Müsabiqənin nəticələrinə görə, Bərdə Cümə məscidinin axundu Ramazan Hüseynov və Oğuz şəhər "Cümə" məscidi dini icmasının sədri Şövkət Cəlilov birinci yer, "Cərcis peyğəmbər" ziyarətgahı dini icmasından Mirsəccad İmranov və Tovuz cümə məscidi dini icmasından Mətləb Abbasov ikinci yer, Hacıqabul rayon Abdulabad kənd "Cümə məscidi" dini icmasının sədri və Goranboy rayon Səfikürd kənd məscidi dini icmasının sədri Elnur Cəfərov isə üçüncü yeri tutub. Biləsuvar rayonu Nərimankənd kənd "İmam Hüseyn" məscidi dini icmasının sədri Meyxoş Mirişov, Füzuli rayon Horadiz şəhər Əhli-beyt məscidinin axundu Nəriman Nəsirov və Zaqatala rayonu Çobankol kənd məscidi dini icmasının sədri Məhəmməd Nurullayev həvəsləndirici mükafatlarla təltif edilib.

# Yeni qeydiyyatdan keçmiş dini icmalara şəhadətnamələr təqdim olunub



Mayın 12-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində qeydiyyatdan keçmiş bir qrup dini icmaya şəhadətnamələr təqdim edilib. Bu məqsədlə təşkil edilmiş toplantıda Dövlət Komitəsinin rəhbərliyi, şöbə müdirləri və yeni qeydiyyatdan keçmiş dini icmaların sədrləri iştirak ediblər.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Azərbaycanda dövlət-din münasibətlərindən danışaraq bildirib ki, ölkədə dini durum sabitdir və dövlət-din münasibətləri qanunla tənzimlənir. Mövcud qanunvericilik dövlət-din münasibətlərini yüksək səviyyədə nizamlayır. Ölkəmizdə müxtəlif konfessiyaların mövcud olduğunu vurğulayan Komitə sədri Azərbaycanda məscidlərlə yanaşı, kilsə və sinaqoqların da fəaliyyət göstərdiyini diqqətə çatdırıb.

Azərbaycan dövlətinin dini icmalara qayğısından danışan Komitə sədri qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin başladığı bu siyasət hazırda Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dini icmaların maarifləndirmə işinin təşkili və icmaların fəaliyyətinin yaxşılaşdırılması məqsədilə ölkə Prezidenti tərəfindən ayrılmış maliyyə yardımı bunun əyani göstəricisidir. Maliyyə yardımı İslam və qeyri-islam dini icmalar üçün nəzərdə tutulub.

Yeni qeydiyyatdan keçmiş dini icmaların sədrlərinə müvafiq tövsiyələr verən Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı onların yerlərdə axund və imamlarla, eləcə də QMİ-nin nümayəndələri ilə qarşılıqlı əməkdaşlıq və fəaliyyətinin zəruriliyini vurğulayıb.

Eyni zamanda, Mübariz Qurbanlı dini icma sədrlərinə rəhbərlik etdikləri icmaların milli-mənəvi dəyərlərimizin təbliği və radikalizmə qarşı mübarizə istiqamətində fəaliyyət göstərmələrini, hər zaman ümummilli maraqları əsas götürməyi tövsiyə edib.

Dini icma sədrləri çıxış edərək dini sahəyə göstərdiyi diqqət və qayğıya görə Prezident İlham Əliyevə təşəkkürlərini bildiriblər.

Sonda qeydiyyat şəhadətnamələri dini icma sədrlərinə təqdim olunub.

# Dövlət Komitəsi ABŞ təşkilatının din azadlığı haqqında illik hesabatına münasibət bildirib

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Amil Cavadov ABŞ-ın Beynəlxalq Din Azadlığı üzrə Komissiyasının (USCİRF) dünyada din azadlığı haqqında illik hesabatına münasibət bildirib.

ABŞ-ın Beynəlxalq Din Azadlığı üzrə Komissiyası (USCİRF) dünyada din azadlığı haqqında illik hesabatını açıqlayıb. Hesabatda Azərbaycandakı dini durumla əlaqədar verilən malumatlar qərəzli və qeyri-obyektiv xarakter daşıyır. Həmin məlumatlar Azərbaycanda mövcud tolerant və multikultural mühitə kölgə salmağa, ölkəmiz haqqında mənfi rəy formalaşdırmağa yönəlmiş cəhddən başqa bir şey deyildir.

Azərbaycan tolerant və multikultural dəyərlərə sahib ölkədir və respublikamızda dinindən və etnik mənsubiyyətindən asılı olmayaraq bütün insanlar bərabər hüquqludurlar. Azərbaycanda dini etiqad azadlığı qanunla təmin olunur və insanların dini ibadətlərini həyata keçirmələri üçün hər cür şərait yaradılıb. Azərbaycanın tolerantlıq ənənələri bütün dünya ölkələri üçün nümunədir və bu bütün dünya dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən birmənalı qəbul edilib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaxın günlərdə hesabatla bağlı ətraflı mövqeyini açıqlayacaqdır.

**Tolerantlıq, dözümlülük çox geniş anlayışdır. O, həm insani münasibətlərin, həm insan cəmiyyətində gedən proseslərin, həm də dövlətlərarası, millətlərarası, dinlərarası münasibətlərin bir çox cəhətlərinə aiddir... O, təkcə dinlərin bir-birinə dözümlülüyünü deyil, həm də bir-birinin adətlərinə, mənəviyyatına dözümlülük, mədəniyyətlərə dözümlülük deməkdir.**

*Heydər ƏLİYEV*

# AZƏRBAYCANI TOLERANTLIĞIN ƏN MÜKƏMMƏL NÜMUNƏSİNƏ ÇEVİRƏN LİDER

**Mübariz QURBANLI,**
**Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, YAP İdarə Heyətinin üzvü**

Azərbaycan milli və dini baxımdan həmişə tolerant bir ölkə olmuşdur. Tarixən dinlərin və mədəniyyətlərin qovşağı olmuş ölkəmiz bu gün də öz missiyasını uğurla yerinə yetirir. Azərbaycan ərazisində məskunlaşmış dini etnik qruplar burada özlərini nəinki yad hesab etməmiş, hətta yerli əhali ilə qaynayıb-qarışmışlar. Fərqli dini konfessiya nümayəndələri hər zaman Azərbaycan xalqı ilə həmrəy olmuş, bütün tarixi dövrlərdə etnik və dini icmalar arasında möhkəm dözümlülük əlaqələri formalaşmış, milli, masında, respublikada dini əmin-amanlığın və sabitliyin yaranmasında Ümummilli Lider Heydər Əliyevin mühüm rol oynadığını vurğulayan Moskva və Ümumrusiya Patriarxı II Aleksi Azərbaycanın bu sahədə nümunə olması ilə bağlı öz fikirlərini şərh edərək demişdir: "Azərbaycan qədim dini ənənələrə və mədəniyyətə malik bir ölkədir. Bu gün Azərbaycan dini əmin-amanlığa və sabitliyə ilham verən örnəkdir. Bunun əsası Azərbaycan Prezidenti Heydər Əliyevin müdrik siyasəti sayəsində qoyulmuşdur. Dünyəvi hakimiyyət və mış əlverişli şəraitin təbii təzahürüdür".

Həmçinin Vatikanın Dövlət katibi, kardinal Tarçizio Bertone 2008-ci ilin mart ayında Bakıda olarkən Azərbaycanda müşahidə etdiyi tolerantlığı yüksək qiymətləndirərək, müxtəlif dinlərə sitayiş edən insanların dinc, mehriban şəraitdə yaşaması faktını xüsusi vurğulamışdır. Kardinal Tarçizio Bertone Azərbaycan xalqının və dövlətinin digər millətlərə və dinlərə olan münasibətini yüksək dəyərləndirmişdir. Tolerantlığın Azərbaycan xalqının mentaliteti ilə bağlı olduğunu deyən Vatikanın dövlət katibi ölkə Prezidentinin fəaliyyətində də həmin məqamın aydın göründüyünü bildirmişdi.

Azərbaycanda dövlətin din siyasətinin ların əsrlərlə əmin-amanlıq şəraitində yaşamasında, etnik-mədəni müxtəlifliyin günümüzədək qorunub saxlanılmasında Azərbaycan xalqının və İslam dininin misilsiz tarixi rolu danılmazdır".

Prezident İlham Əliyev son 11 ildə tarixi-mədəni irsin, milli-mənəvi dəyərlərin dirçəldilməsinə, həmçinin dini ziyarətgahların əsaslı təmirinə və yenidən qurulmasına xüsusi diqqət ayırmışdır. Maddi-mədəniyyət abidələrinin bərpası və mühafizəsini daim diqqət mərkəzində saxlayan dövlət başçısının sərəncamları ilə son bir neçə ildə qədim tarixi abidələrin, ziyarətgahların bərpası ilə bağlı görülən silsilə tədbirlər dini-mənəvi dəyərlərə verilən yüksək qiymətin göstəricisidir.

dini və irqi zəmində heç bir ayrı-seçkilik faktı qeydə alınmamışdır.

Tolerantlığın Azərbaycanda çox möhkəm təməl sütunları, zəngin ənənələri, dərin tarixi-mədəni kökləri mövcuddur. Azərbaycan xalqı daim bu bölgədə yaşayan insanlar arasında sülh və əmin-amanlıq şəraitinin yaradılmasına əvəzsiz tarixi töhfələr vermişdir. Dözümlülük, başqa dinlərin nümayəndələri ilə dinc yanaşı yaşamaq azərbaycanlıların milli mentalitetinin əsas xüsusiyyətlərindəndir. Ölkəmizdə tarixən İslam dini ilə yanaşı, Xristianlıq, Yəhudilik dininə mənsub insanlar qarşılıqlı anlaşma, mehriban qonşuluq və əmin-amanlıq şəraitində yaşamışlar.

Azərbaycan müstəqilliyini bərpa etdikdən və Ümummilli Lider Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra milli-dini dəyərlərimizin qorunmasında, İslam dininə ehtiram göstərilməsində, xalqımızın dini əqidəsinin daha da möhkəmləndirilməsində öz əməli fəaliyyəti ilə böyük rol oynamışdır.

Azərbaycan tarixən tolerantlıq, dini dözümlülük ənənələri ilə fərqlənsə də, tam qətiyyətlə deyə bilərik ki, beynəlxalq standartlara cavab verən tolerantlıq ölkəmizdə məhz Heydər Əliyevin xidmətləri sayəsində qurulmuşdur. Bu gün müasir Azərbaycanda dövlət-din münasibətləri modeli çərçivəsində bütün dini konfessiyalar qanun qarşısında bərabərdir və eyni statusa malikdir.

Vətəndaşlarının böyük əksəriyyətini müsəlmanlar təşkil edən ölkəmizdə digər dinlərə də xüsusi qayğı göstərilir. 1920-ci ildə bağlanan Jen Mironosets baş kilsəsinin binası 1991-ci ildə Rus Pravoslav Kilsəsinə verilmişdir. Azərbaycanda səfərdə olan Moskvanın və bütün Rusiyanın Patriarxı II Aleksi 27 may 2001-ci il tarixdə bu məbədi müqəddəs elan etmiş və ona baş kafedral kilsə statusu vermişdir. Kilsənin açılış mərasimində Ulu Öndər Heydər Əliyev, hökumət üzvləri, səfirliklərin nümayəndələri və dini icmaların başçıları iştirak etmişlər. Azərbaycanda dövlət-din münasibətlərinin düzgün qurulənənəvi dini icmaların konstruktiv fəaliyyəti və qarşılıqlı ünsiyyəti nəticəsində yaranmış dövlət-din münasibətlərinin nadir modeli Azərbaycan Respublikasında öz əksini tapmışdır. Belə zənn edirəm ki, bu sahədə Azərbaycanda toplanmış təcrübə diqqətlə öyrənilməli və təhlil olunmalıdır".

1997-ci ildə ölkəmizdə gürcü yəhudilərinin sinaqoqu bərpa edilmişdir. Ümumiyyətlə, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra buradakı yəhudi icmaları beynəlxalq yəhudi təşkilatları ilə əlaqələrini möhkəmləmiş, dini məktəblərini, mədəniyyət mərkəzlərini, cəmiyyətlərini, qəzetlərini yaratmışlar. 2003-cü il martın 9-da Bakıda yeni yəhudi sinaqoqu açılmışdır. Bu, hazırda Avropada ən böyük sinaqoqdur.

Azərbaycanda dini tolerantlığın formalaşmasında Heydər Əliyevin xidmətini yüksək dəyərləndirən Ümumgürcüstan Katolikos Patriarxı II İlya Azərbaycanda mövcud olan dini tolerantlıqdan və bu sahədə Heydər Əliyevin və onun davamçılarının xidmətindən bəhs edərək demişdir: "Bu gün Azərbaycanda mövcud olan tolerant mühitin formalaşmasında Heydər Əlirza oğlu Əliyevin xidməti böyükdür. Azərbaycanın öz ənənəvi dəyərlərini qoruyub saxlamaqla müasir dünyanın çağırışlarına ləyaqətlə cavab verə bilməsi şəxsən onun və onun davamçılarının müdrik və uzaqgörən siyasətinin nəticəsidir".

Azərbaycanın dinlərarası dialoq və əməkdaşlıq sahəsində nadir təcrübəsi ölkə xaricində də yüksək qiymətləndirilmiş və tanınmışdır. Bunun bariz nümunəsi kimi Roma-katolik kilsəsinin başçısı II İoann Pavelin 2003-cü ilin mayında Bakıda olarkən dediyi fikirləri xatırlatmaq kifayətdir: "Azərbaycan üç müxtəlif dinin dinc yanaşı yaşadığı nadir bir ölkə və dini dözümlülük baxımından sabit cəmiyyətdir. Bu stabillik gərgin əməyin, ölçülüb-biçilmiş çox incə bir siyasətin və möhkəm iradənin nəticəsidir. Bu, milli adət-ənənələrə, mənəvi-dini dəyərlərə ölkə rəhbərliyinin münasibəti fonunda yaranhəyata keçirilməsini təmin etmək məqsədilə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci ilin iyun ayında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradılmışdır. Komitə ölkəmizdə mövcud olan dini strukturların fəaliyyətinin tənzimlənməsi və dövlətin din siyasəti sahəsində müxtəlif funksiyalarını yerinə yetirir.

Ümumiyyətlə, milli dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması bu gün də öz aktuallığını qoruyub saxlayır. Çünki bu dəyərlərin xalqımızın formalaşmasına təsiri böyük olduğu kimi, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu var. Bu gün milli dəyərlərimiz elliklə, bütün xalq tərəfindən, dövlətin öz himayəsi altında qorunur və daha da inkişaf etdirilir.

Azərbaycan dünyada öz mədəniyyəti, tarixi, adət-ənənələri ilə fəxr etməyə layiq az sayda dövlətlərdən biridir. Tolerantlığın dövlət strategiyası olaraq əsasını Ümummilli Lider Heydər Əliyev qoymuş, bu zəngin ənənə hazırda möhtərəm Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik ənənələrinin layiqli davamçısı olduğunu əməli addımları ilə sübuta yetirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev milli-mənəvi dəyərlərimizin qorunmasına və inkişafına çox böyük diqqət və qayğı göstərir. Azərbaycanda dini və milli tolerantlığın tarixən mövcud olduğunu və bu tolerantlığın indiyə kimi qorunub saxlanılmasında Azərbaycan xalqının və İslam dininin misilsiz rol oynadığını vurğulayan Prezident İlham Əliyev bu fikri aşağıdakı kimi şərh etmişdir: "Tarixən dünya dinlərinin yayıldığı və dinc yanaşı fəaliyyət göstərdiyi qədim Azərbaycan torpağında yüzillərlə qarşılıqlı etimada və hörmətə əsaslanan mütərəqqi milli-mədəni və dini münasibətlər sistemi formalaşmışdır. Diqqətəlayiq faktdır ki, ölkəmizdə həmişə yüksək tolerantlıq mühiti hökm sürmüş, heç vaxt milli və dini zəmində ayrı-seçkilik və qarşıdurma halları baş verməmişdir. Ayrı-ayrı etiqad və inanclara malik etnosPrezident İlham Əliyevin xalqımızın dini dəyərlərinə, müxtəlif dinlərə və sivilizasiyalara hörmətlə yanaşması, milli-mənəvi dəyərlərə həssas münasibətin dövlət siyasətinin mühüm prioritetlərindən birinə çevrilməsi, ölkədə güclü tolerantlıq ənənələrinin getdikcə daha da möhkəmləndirilməsi Azərbaycanı dünyada multikulturalizmin əsas mərkəzinə çevirmişdir. Dini, mədəni və tarixi abidələrin bərpasına, onların yenidən xalqın qan yaddaşına qaytarılmasına həssaslıqla yanaşan, bu sahədə həyata keçirilən layihələrə ciddi dəstək verən Prezident İlham Əliyevin son illərdə bir çox dini abidələrin bərpası ilə bağlı imzaladığı sərəncamlar, verdiyi tapşırıqlar ölkəmizdə mövcud olan milli-mənəvi dəyərlər sisteminin ayrılmaz hissəsinə çevrilmişdir. Bunun nəticəsidir ki, son illərdə Təzəpir, Bibiheybət, Əjdərbəy məscidlərində geniş tikinti və yenidənqurma işləri həyata keçirilmişdir. Hazırda Prezident İlham Əliyevin tapşırıqlarına əsasən Gəncədəki İmamzadə kompleksində təmir-bərpa işləri aparılır. Azərbaycan və Şərq memarlığının nadir incilərindən olan Şamaxı Cümə məscidi artıq dindarların istifadəsinə verilmişdir. Bütün bunlar bir daha göstərir ki, Prezident İlham Əliyev tarixi keçmişimizin unudulmasına imkan vermir və çalışır ki, gələcək nəsillər xalqımızın milli-mənəvi dünyasına daha çox bağlı olsunlar.

Ötən ilin dekabr ayında Qafqazın ən böyük məscidi - memarlığında İslam dininin möhtəşəmliyini, bununla bərabər Azərbaycanın milli, dini ənənələrə sadiqliyini nümayiş etdirən Heydər məscidinin açılışı olmuşdur. Açılışda ölkəmizin hər rayonundan gələn dindarlar, ictimai xadimlər, Şimali Qafqaz müftiləri də iştirak etmişlər. Mərasimdə Azərbaycan Respublikasının Prezidenti çıxış edərək tikinti işlərinin gedişatı və digər məqamlara toxunmuş, bu məscidin müsəlmanların birliyini təsdiq edə biləcək bir simvola çevriləcəyini qeyd etmişdir. Hazırda ölkəmizdə 2 mindən artıq məscid var. Son 11 il ərzində isə 140-a yaxın məscid tikilmiş, 80 məscid əsaslı təmir edilmişdir.

# AZƏRBAYCANI TOLERANTLIĞIN ƏN MÜKƏMMƏL NÜMUNƏSİNƏ ÇEVİRƏN LİDER



Ölkəmizdə dini zəmində münaqişələrin olmaması, insanların sərbəst olaraq öz əqidə formasını seçməsi, dini dözümlülük və tolerantlıq şəraitinin yaradılması, bu uğurların bir çox beynəlxalq təşkilatlar, dünyada nüfuzlu din xadimləri və böyük ölkələr tərəfindən etiraf olunması Ümummilli Lider Heydər Əliyevin dini sahədə balanslaşdırılmış siyasətinin uğurla davam etdirilməsinin nəticəsidir.

Respublikamız müstəqilliyini bərpa etdikdən sonra ölkəmizdə din və mədəniyyətlə bağlı çoxsaylı beynəlxalq konfransların keçirilməsi və dini tolerantlıq sahəsində Azərbaycanın başqa ölkələr üçün nümunə olması elmi-nəzəri və praktiki əhəmiyyət kəsb edən həmin konfranslarda dini tolerantlıqla bağlı yeni müddəaların hazırlanıb təşviq edilməsi olmuşdur. Bu tədbirlərə misal olaraq "İslam sivilizasiyası Qafqazda" Beynəlxalq elmi-praktik konfransı (10 dekabr 1998); Azərbaycanda fəaliyyət göstərən dini icma başçıları ilə Ulu Öndər Heydər Əliyevin genişmiqyaslı görüşü (16 noyabr 1999); "Demokratik cəmiyyətdə dinin və əqidənin rolu: terrorizm və ekstremizmə qarşı mübarizə yollarının araşdırılması" Beynəlxalq elmi-praktik konfransı (10-11 oktyabr 2002); "Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər" Beynəlxalq elmi-praktik konfransı (3-4 aprel 2007); Dünya dini liderlərinin Bakı sammiti (26 aprel 2010); "Dəyişən dünyada tolerantlığın gücləndirilməsi" I Beynəlxalq Bakı Forumu (19-21 dekabr 2012); "Mədəniyyətlərarası dialoq: mədəniyyət və din arasında qarşılıqlı əlaqə" mövzusunda 2014-cü il mədəniyyətlərarası dialoqun dini ölçüsü üzrə Avropa Şurasının mübadilə görüşü (1-2 sentyabr 2014); "Dinlərarası qarşılıqlı anlaşma: birgəyaşayışın modelləri" Azərbaycanın dini tolerantlıq modelinə həsr olunmuş Beynəlxalq konfransı (UNESCO, 14 noyabr 2014); "Dini tolerantlığın möhkəmləndirilməsi (Azərbaycan modeli, ATƏT regionu və onun hüdudlarından kənarda çağırışlar)" Beynəlxalq konfransı (17-18 noyabr 2014); "İslam ənənəli dövlətlərdə dini birgəyaşayış. Müsəlman ölkəsində müxtəlif dinlərin yanaşı mövcudluğu: Azərbaycan təcrübəsi" Beynəlxalq konfransı (11dekabr 2014) və s. göstərə bilərik.

Qeyd etmək lazımdır ki, 2011-ci ildən başlayaraq hər il ölkəmizdə Bakı Beynəlxalq Humanitar Forumu keçirilir. Forum XXI əsrdə bəşəriyyətin qarşısında duran qlobal çağırışlara cavab tapmaq, humanitar əməkdaşlıqla bağlı ən mühüm məsələlərə dair genişspektrli dialoqlar, fikir mübadilələri və müzakirələr aparmaq üçün beynəlxalq miqyasda nüfuzlu elmi-siyasi platformadır. Mədəniyyətlər, sivilizasiyalar və konfessiyalar arasında zəngin əməkdaşlıq ənənələri olan Azərbaycan bu formatda tədbirlərin keçirilməsi üçün ideal ölkədir.

Bundan əlavə, Azərbaycan dövlətinin yürütdüyü tolerantlıq siyasətinin daha da genişlənməsi və möhkəmlənməsi, tolerantlıq mühitinin qorunub saxlanılması və təşviqi məqsədilə dövlət başçısı İlham Əliyev bir sıra mühüm tədbirlər həyata keçirmişdir. İlk olaraq 2014-cü ilin fevral ayında Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirliyi xidməti yaradılmışdır. Multikulturalizmin həyat tərzinə çevrildiyi Azərbaycanın dünyaya tolerantlıq nümunəsi olaraq daha geniş tanıdılmasının vacibliyini, eləcə də ayrı-ayrı ölkələrdəki müxtəlif multikultural modellərə xas fəlsəfi, sosial, siyasi və digər aspektlərin Azərbaycan reallığında təhlili və təşviqinin əhəmiyyətini nəzərə alaraq 14 may 2014-cü ildə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması haqqında Fərman imzalamışdır.

Azərbaycanda dini tolerantlıq mədəniyyətinin inkişaf etdirilməsində, milli-mənəvi dəyərlərimizin təbliğində Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın misilsiz xidmətləri var. Mehriban xanım Əliyeva hər zaman Azərbaycan həqiqətlərini beynəlxalq tədbirlərdə ən yüksək tribunalardan xarici ölkə nümayəndələrinin diqqətinə çatdırmışdır.

Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva xalqlar arasında dostluq münasibətlərinin, qarşılıqlı yardımlaşma və təcrübə mübadiləsinin vacibliyini daima vurğulayıb. Azərbaycanın zəngin tolerantlıq ənənələrinə diqqət çəkən Mehriban xanım Əliyeva ölkəmizdə yaşayan xalqların öz mədəni müxtəlifliyini qoruyub saxlamaq, dini etiqadlarını sərbəst yerinə yetirmək, tarixən mövcud olmuş tolerantlıq mühiti barədə fikirlərini bölüşərkən demişdir: "Xalqlar arasında ənənəvi dostluq və qardaşlıq münasibətlərinin, tolerantlığın hökm sürdüyü Azərbaycan cəmiyyəti bizim tarixi nailiyyətimizdir və bu amil ictimai-siyasi həyatımızın aparıcı normasına çevrilmişdir. Ölkəmizdə yaşayan müxtəlif xalqlara öz milli mənəvi dəyərlərini, dini etiqadını, adət-ənənələrini qoruyub saxlamaq, dil və mədəniyyətini inkişaf etdirmək üçün demokratik şərait təmin edilmişdir. Azərbaycanın bütün vətəndaşları dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq əsas insan hüquq və azadlıqlarına malikdirlər. Qürurverici faktdır ki, Azərbaycan dünya ölkələri üçün tolerantlıq örnəyi hesab olunur və bir çox dövlətlər bizim təcrübəmizdən yararlanmağa çalışırlar".

Heydər Əliyev Fondu hər bir layihəsi ilə müxtəlif xalqlar arasında humanizm, həmrəylik və dözümlülük kimi bəşəri dəyərlərin bərqərar olmasına öz töhfəsini verməyə çalışır. Uğurla həyata keçirilən "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində ölkədəki məscidlərdə, kilsələrdə, sinaqoqlarda təmir-bərpa işləri aparılır. Bakıda yəhudi uşaqları üçün təhsil kompleksinin istifadəyə verilməsi, Fransa regionlarında kilsələrin, müqəddəs Roma katakombalarının bərpasında iştirakımız, Həştərxanda Müqəddəs Knyaz Vladimirə abidənin ucaldılması da məhz ayrı-ayrı xalqların və konfessiyaların qarşılıqlı hörmət və dostluq münasibətlərinin genişləndirilməsinə xidmət edir.

Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın bilavasitə təşəbbüsü və rəhbərliyi ilə Azərbaycanda tolerantlıq ənənələrinin qorunmasına xüsusi əhəmiyyət verən Heydər Əliyev Fondu layihə çərçivəsində 2005-ci ildə Mərdəkan qəsəbəsində XVI əsrə aid Pir Həsən ziyarətgahında, 2006-cı ildə Binə qəsəbəsindəki Möhsün Səlim məscidində əsaslı təmir və bərpa işləri aparılmışdır. 2006-cı ildə Gəncədə Həzrəti Zeynəb məscidi yenidən qurulmuşdur. 2008-ci ilin sentyabrında Heydər Əliyev Fondu və Roma Katolik dini icması arasında imzalanmış anlaşma memorandumu çərçivəsində Bakıdakı Müqəddəs Məryəm kilsəsi asma tavan şüşələri dini mövzuda və klassik vitraj texnikasında işlənmiş bədii şüşələrlə əvəz edilmiş, məbədin fasadında keramik panno yerləşdirilmişdir. 2007-2009-cu illərdə Buzovna qəsəbəsindəki Cümə məscidində, 2012-2013-cü illərdə Binə qəsəbəsindəki İmam Rza və Mərdəkan qəsəbəsindəki Heydər Cümə məscidlərində əsaslı təmir və yenidənqurma işləri aparılmışdır. Qəbələdə isə 2013-cü ildə yeni məscid istifadəyə verilmişdir. 2007-ci ildə Bakıdakı Pravoslav kilsəsində təmir-bərpa işləri aparılmışdır.

Bakıda yaşayan yəhudi uşaqları üçün "Xabad-Or-Avner" Təhsil Mərkəzi "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində Heydər Əliyev Fondu və "Or-Avner" Beynəlxalq Fondu tərəfindən inşa edilmişdir.

"Tolerantlığın ünvanı - Azərbaycan" layihəsinin digər tərkib hissəsi kimi dünyanın müxtəlif ölkələrində Azərbaycanda dini tolerantlığı əks etdirən fotoşəkillər sərgilənmişdir.

Heydər Əliyev Fondunun beynəlxalq fəaliyyətindən danışarkən Pakistanda gördüyü işlərə xüsusi diqqət yetirilməlidir. Fondun dost ölkədə səhiyyə, təhsil və humanitar sahələrdə həyata keçirdiyi irimiqyaslı layihələr Pakistan dövləti və ictimaiyyəti tərəfindən hər zaman yüksək dəyərləndirilmişdir. Mehriban xanım Əliyevanın Pakistanda uşaqlar üçün tikdirdiyi və təmir etdirdiyi məktəblər, səhiyyə ocaqları, musiqi liseyləri və uşaq evləri, talassemiya və diabetdən əziyyət çəkən uşaqlara xüsusi qayğısı Pakistan xalqı tərəfindən minnətdarlıq hissi ilə xatırlanır.

Hazırda Azərbaycanda formalaşmış dini tolerantlıq mühitinin qorunub saxlanması və daha da möhkəmləndirilməsi üçün görülən işlər sayəsində respublikamızda rəsmi olaraq 598 dini icma qeydiyyatdan keçmişdir. Bunlardan 577-si İslam, 21-i qeyri-İslam təmayüllü dini icmadır. Eyni zamanda ölkəmizdə 11 kilsə, 6 sinaqoq fəaliyyət göstərir.

Azərbaycan xalqını vahid ideologiya ətrafında birləşdirən onun zəngin mədəniyyəti, mənəvi dəyərləri, adət-ənənələri ilə yanaşı, həm də İslam dinidir. Xalqın dini dəyərlərinin və mədəniyyətinin qorunması istiqamətində ötən müddətdə atılan ardıcıl addımlar tolerantlıq və multikulturalizm siyasətinə alternativin olmadığını sübuta yetirir.

Ümummilli Lider Heydər Əliyevin dövlət-din münasibətləri ilə bağlı apardığı siyasət Azərbaycanın adət-ənənələrinə və xalqın zəngin keçmişinə əsaslanıb, tarixin sınağından keçən milli-mənəvi dəyərlərimizin müasir dövrdə daha da effektivliyinə diqqəti yönəldib. Cəmiyyətdə bərqərar olan tolerantlıq və humanizm mühiti də məhz Heydər Əliyevin müdrik siyasətinin nəticəsidir. Heydər Əliyevin milli kimliyimizin formalaşmasında mühüm rol oynayan və xalqımızın mənəviyyatını zənginləşdirən İslam dininə münasibəti də özünəməxsus idi. O, İslamın insanpərvər və mütərəqqi din olduğunu vurğulayaraq deyirdi: "Bizim dinimiz mütərəqqi dindir. Əsrlər boyu İslam dini özünün mütərəqqi olduğunu və eyni zamanda, İslam dininə itaət edən adamların hamısına özünün nə qədər tərəqqipərvər və nə qədər dünyəvi əhəmiyyətli olduğunu sübut edir, müsəlmanlara daim xoşbəxtlik bəxş edir".

Fəxrlə qeyd edə bilərik ki, bu gün Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyəti sayəsində ölkəmiz tolerantlıq, multikulturalizm və dini maarifləndirmə ilə bağlı regional və beynəlxalq konfransların, yüksək səviyyəli forumların keçirildiyi əsas məkana çevrilib. Azərbaycanda dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində həyata keçirilən siyasət dünya ictimaiyyəti tərəfindən diqqətlə izlənilir və yüksək qiymətləndirilir. Daim xalqımızın milli-mənəvi dəyərlərinin mütərəqqiliyini vurğulayan dövlət başçısı İlham Əliyev gələcək inkişafımızı zəngin tarixi keçmişə söykənən adət-ənənələrimizlə müasir ideyaların sintezində görməklə, ölkəmizdə milli-dini dəyərlərin qorunub saxlanılması istiqamətində ardıcıl işlər həyata keçirir.

# Ağcabədidə "Ənənəvi İslam dəyərləri və müasirlik" mövzusunda regional konfrans

Mayın 26-27-də Ağcabədi şəhərində "Ənənəvi İslam dəyərləri və müasirlik" mövzusunda ikigünlük regional konfrans təşkil edilib.

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Ağcabədi Rayon İcra Hakimiyyətinin dəstəyi ilə keçirdiyi konfransa Ağcabədi, Ağdam və Tərtər rayonlarında fəaliyyət göstərən dini icmaların rəhbərləri, din xadimləri, ictimaiyyət nümayəndələri, ziyalılar, gənclər qatılıblar.

Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül-çiçək düzüb, xatirəsini ehtiramla yad ediblər.




Tədbirin açılışında çıxış edən Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov konfransın əhəmiyyətini yüksək qiymətləndirib, Ümummilli Lider Heydər Əliyev və onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən milli mənəvi dəyərlərimizin inkişafı üçün həyata keçirilən işlərdən danışıb. Bildirib ki, xalqımız əsrlər boyu milli mənəvi və dini dəyərləri-ni, tolerantlıq mühitini qoruyub saxlayıb.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı konfransda çıxış edərək, xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən əsası qoyulmuş dövlət-din münasibətlərindən, dahi rəhbərin milli-mənəvi dəyərlərin qorunması istiqamətində gördüyü misilsiz işlərdən, Konstitusiyada təsbit edilmiş vicdan azadlığından, ölkəmizdə hökm sürən tolerantlıq mühitindən, ayrı-ayrı dinlər və etiqadlar arasında qarşılıqlı hörmət və etimada əsaslanan əməkdaşlıq münasibətlərindən danışıb. Bildirib ki, Azərbaycan dünyəvi, hüquqi və demokratik dövlətdir. Ölkəmizdə dövlət-din münasibətləri zəngin milli tarixi ənənəyə əsaslanır.

Komitə sədri dünyada İslam dinini radikalizmə sürükləmək meyillərinin artmasından, bəzi qüvvələrin İslamı siyasiləşdirərək daxildə qarışıqlıq yaratmaqla onu gözdən salmağa çalışmasından, terrorla əlaqələndirmək istəklərindən də danışaraq, dini maarifləndirmə işinin vacibliyini vurğulayıb. Qeyd edib ki, gənclərimizi dini və mənəvi-əxlaqi dəyərlərimizə yad olan radikal təriqətlərin təsirindən qorumaq məsuliyyəti bütün cəmiyyətin üzərinə düşür.

Milli Məclisin deputatı Tahir Rzayev, Qafqaz Müsəlmanları İdarəsi sədrinin Qarabağ bölgəsi üzrə səlahiyyətli nümayəndəsi hacı Ramazan Hüseynov və başqaları çıxışlarında dövlət-din münasibətlərindən, ölkəmizin tolerantlıq ənənələrindən, xalqımızın bütün dinlərə və konfessiyalara dözümlü münasibətindən bəhs ediblər.

"Dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği" mövzusunda davam edən plenar iclasda "Dini radikalizm və onunla mübarizə üsulları", "Milli-mənəvi dəyərlərimiz və ona qarşı təhdidlər" mövzularında məruzələr dinlənilib, müzakirələr aparılıb.

Konfransın ilk iş günü başa çatdıqdan sonra komitə sədri Mübariz Qurbanlı Ağcabədidəki "Cümə" məscidində dindarlarla görüşüb, məscidə kitablar hədiyyə edib.

Regional konfrans işini mayın 27-də "Ənənəvi dini dəyərlərimiz və gənclik" mövzusunda plenar iclasla davam etdirib.



# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Ağcabədidə vətəndaşları qəbul edib

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların müraciət və təkliflərinin, ərizə və şikayətlərinin həlli üçün operativ tədbirlər görürlər.

Mayın 26-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Ağcabədi şəhərindəki Heydər Əliyev Mərkəzində Ağcabədi, Ağdam, Bərdə və Tərtər rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbulda vətəndaşlar əsasən məscidlərin tikintisi və təmiri, dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, dini təyinatlı ədəbiyyatın, əşyaların və dini məzmunlu başqa məlumat materiallarının satışı üçün mağazaların lisenziyası, yerlərdə dini qurumların vəziyyəti və digər məsələlərlə bağlı müraciət ediblər.

İyirmi nəfərədək vətəndaşı qəbul edən Dövlət Komitəsinin sədri bir sıra müraciətləri yerindəcə həll edib. Komitənin səlahiyyətlərinə aid olmayan məsələlərlə bağlı müraciətlər isə baxılması və müvafiq tədbirlərin görülməsi üçün aidiyyati qurumlara çatdırılmaq məqsədilə qeydiyyata alınıb.

Vətəndaşlar yaradılan şəraitdən razılıqlarını bildirib, bölgələrdə bu cür qəbulların təşkilinə görə Prezident İlham Əliyevə minnətdarlıq ediblər.

# "Milli-mənəvi dəyərlərimiz və müasirlik"

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi arasında imzalanmış birgə Tədbirlər Planına uyğun olaraq, Yevlax rayonunda məcburi köçkünlər üçün salınmış qəsəbədə "Milli-mənəvi dəyərlərimiz və müasirlik" mövzusunda tədbir keçirilib.



Tədbirdə qəsəbədə məskunlaşmış məcburi köçkünlər, qəsəbədəki məktəbin müəllim və şagird kollektivi iştirak edib.

Tədbirdə çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov milli-mənəvi dəyərlərimizin qorunmasından, dini radikalizmlə mübarizədən və ona qarşı həyata keçirilən tədbirlərdən söz açıb. O qeyd edib ki, bu sahədə ardıcıl, genişmiqyaslı tədbirlər keçirilir. Dini radikalizmlə mübarizə çərçivəsində maarifləndirici tədbirlər dini qurumları, təhsil ocaqlarını, həbsxanaları, müxtəlif idarə və müəssisələri, habelə məcburi köçkünlərin məskunlaşdığı qəsəbələri əhatə edir.

Tədbirin sonunda iştirakçıların sualları cavablandırılıb.

# Dini radikalizmlə mübarizə çərçivəsində növbəti tədbir

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi arasında "Dini radikalizmlə mübarizənin effektivliyinin artırılması məqsədilə Daxili Qoşunların şəxsi heyətinin maarifləndirilməsi istiqamətində birgə işin təşkilinə dair Tədbirlər Planı" çərçivəsində Bərdə rayonunda yerləşən Daxili Qoşunların N saylı hərbi hissəsində "Dini radikalizm və İslam dünyası" mövzusunda tədbir keçirilib.

Tədbirdə çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov dini radikalizmi doğuran səbəblərdən danışaraq, Azərbaycan hökumətinin ölkədə dini tolerantlığın qorunması və radikalizmlə mübarizə istiqamətində həyata keçirdiyi siyasəti xüsusi vurğulayıb. O qeyd edib ki, ölkəmizin uğurlu sosial-iqtisadi inkişafının təmin edilməsi cəmiyyətin problemlərinin həlli istiqamətində atılmış mühüm addımlar, dini maarifləndirmə işinin gücləndirilməsi və gənclərlə iş, həmçinin müxtəlif inzibati tədbirlər Azərbaycan dövlətinin anti-radikalizm siyasətinin əsas elementlərini təşkil edir.

Komitə sədrinin müavini mütəmadi olaraq keçirilən konfrans və treninqlərdən ətraflı danışaraq dini maarifləndirmə ilə bağlı tədbirlərin davam etdirilməsinin zəruriliyini vurğulayıb.

Daha sonra Gündüz İsmayılov görüş iştirakçılarının suallarını cavablandırıb.




## I Avropa Oyunlarına gələcək dindar idmançı və qonaqlara töhfə

I Avropa Oyunlarında iştirak edəcək dindar idmançılar, məşqçilər və onlarla birgə gələn digər qonaqlara dini ayinlərin icrası üçün hər cür şərait yaradılacaq. Bunu Trend-in rəsmi sorğusuna cavabında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı bildirib.

Komitə sədri bildirib ki, Avropa Oyunlarının Əməliyyat Komitəsi (BEGOC) I Avropa Oyunlarında iştirak edəcək idmançılar, məşqçilər və onlarla birgə gələn digər qonaqlar üçün "Atletlər kəndi"ndə xüsusi yer ayırıb. Həmin yerdə müsəlmanlar, yəhudilər və xristianların, eləcə də digər dinlərin nümayəndələrinin ibadət etməsi üçün tam şərait yaradılıb: "Avropa Oyunlarına gələn dindar idmançılar və digərləri dini ayinlərini icra etmək üçün yarışlara gəlməzdən əvvəl bu istəyini təşkilatçılara bildirməlidirlər. Bunun üçün artıq xüsusi sistem və siyahı müəyyənləşdirilir. Hazırda bu sistemin əsasında bütün dini konfessiyalar, hətta lokal dinlər də nəzərə alınmaqla, "Atletlər kəndi"ndə mütəxəssislər işləyirlər. Bu məqsədlə Dövlət Komitəsindən oraya xüsusi qrup ezam olunub. Bundan əlavə, ayrı-ayrı dini icmalarla da danışıqlar aparılıb. Onların nümayəndələrinin iştirakı ilə I Avropa Oyunlarına gələcək idmançılar, məşqçilər və s. şəxslərə öz dini ayinlərini icra etmək üçün hər cür şərait yaradılacaq".

M.Qurbanlı əlavə edib ki, Avropa Oyunlarında yarışları izləməyə gələn digər qonaqlara və turistlərə gəlincə, Bakıda kifayət qədər məscid, kilsə və sinaqoq olduğundan, onlar ibadətlərini və dini ayinlərini istədikləri yerdə rahat icra etmək imkanına malik olacaqlar.

DQİDK sədri, həmçinin, qeyd edib ki, yaranmış fürsətdən istifadə edərək Avropa Oyunları zamanı Azərbaycanın multikultural ənənələrinin, dəyərlərinin, dini tolerantlıq nümunəsinin təbliği məqsədilə ölkəmizə gələn xarici idmançılara, qonaqlara, turistlərə broşürlər paylanacaq, onlar bu barədə ətraflı məlumat veriləcək: "Bu vasitə ilə Azərbaycanda dini dözümlülüyün mövcudluğu, bütün dini konfessiyaların birgə və bərabər şəkildə fəaliyyət göstərdiyi paytaxtımıza gələnlərin diqqətinə çatdırılacaq".

# Gündüz İsmayılov: "Beynəlxalq ekspertlər artıq etiraf edirlər ki...."

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov Trend Beynəlxalq İnformaiya Agentliyinə müsahibə verib.

***Mayın 15-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ISESCO ilə birgə bu qurumun Mərakeşin paytaxtı Rabat şəhərindəki baş ofisində "Müsəlman dünyasında dinlərarası dialoq və mədəniyyətlərarası anlaşmanın təşviqi modelləri" adlı konfrans və "Azərbaycan - İslam mədəniyyətinin incisi" adlı foto-sərgi keçirib. Konfransda DQİDK-nin sədr müavini Gündüz İsmayılovun rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edib.***

***G.İsmayılovun Trend-lə söhbəti də elə bu barədədir.***

**- Gündüz müəllim, ISESCO ilə birgə belə bir konfransın və foto-sərginin keçirilməsində məqsəd nə idi?**

- Azərbaycan həqiqətlərini, xüsusilə xalqımızın yüz illiklər ərzində formalaşmış tolerantlıq ənənələrini və Azərbaycan hökumətinin beynəlxalq aləmdə dinlərarası dialoqa verdiyi dəstəyi ölkə daxilində və xaricdə təbliğ etmək Dövlət Komitəsinin fəaliyyət istiqamətlərindən biridir. Dövlət Komitəsi indiyədək bu istiqamətdə BMT, UNESCO, Avropa Şurası, Avropa Parlamenti, eləcə də İngiltərə, Fransa, Almaniya, habelə Türkiyə və Pakistanda konfranslar keçirmiş və tarixi-dini abidələrimizin fotolarından ibarət sərgilər təşkil etmişdir.

ISESCO İslam dünyasının önəmli və nüfuzlu qurumlarından biridir. Bu təşkilatla Azərbaycan, o cümlədən Dövlət Komitəsi arasında sıx əməkdaşlıq mövcuddur. Bu baxımdan növbəti konfransın və foto-sərginin ISESCO-da keçirilməsi təsadüfi deyildi.

**- Sizcə, ISESCO Azərbaycanın tolerantlıq modelinin beynəlxalq aləmdə, xüsusilə İslam dünyasında təbliğinə və nümunəvi model kimi qəbul edilməsinə necə töhfə verə bilər?**

- Zaman keçdikcə sürətlənən, insanları və xalqları bir-birinə yaxınlaşdıran qloballaşma prosesi, sanki onlar arasında inanc fərqliliyindən qaynaqlanan xüsusiyyətləri daha da dərinləşdirir. Hazırda biz dini ayrı-seçkiliyin gücləndiyi, bəzən dini və etnik qarşıdurmalara bilərəkdən rəvac verildiyi dünyada yaşayırıq. Belə bir dövrdə tolerantlığın, dinlər və mədəniyyətlərarası dialoqun təmin edilməsi həyati əhəmiyyət daşıyır.



Əgər dünyada tolerantlıq prinsipləri bərqərar olmasa, dinlərarası dialoq baş tutmayacaq. Çünki dialoq üçün öncə tərəflər bir-birini qəbul etməlidir. Bu gün həm tolerantlıq prinsiplərinin bərqərar olması, həm də dinlərarası dialoqun reallaşması Qərblə yanaşı, İslam dünyası üçün də aktualdır. Üstəlik, İslam dünyasının məzhəblərarası dialoqa da ehtiyacı var. Təəssüf ki, İslam coğrafiyasındakı münaqişələrin bəzilərinin səbəbləri məhz məzhəb amili ilə bağlıdır. Belə bir vəziyyətdə Azərbaycan həm Qərb, həm də İslam dünyası üçün tolerantlıq baxımından nümunəvi modelə çevrilə bilər.

Təsəvvür edin ki, Amerika və Avropanın bəzi dairələrində İslamla bağlı aqressiv münasibət var. Hətta bəziləri İslam dininin qadağan edilməsini düşünür. Onlar elə zənn edirlər ki, İslam dini dözümsüzlüyü təbliğ edir, müsəlmanlar isə terroru dəstəkləyir. Təbii ki, bu, doğru deyil və İslama, müsəlmanlara qarşı ən azı ədalətsizlikdir.

Çünki İslam sülh, əminamanlıq, birgəyaşayış dinidir. Əslində, Azərbaycanda tarixən tolerantlıq ənənələrinin formalaşmasında İslam dinin böyük rolu olub.

İndiki dövrdə Qərb İslam dünyasında konkret nümunələr axtarır. Əlbəttə, indiyədək müxtəlif nümunələr olub, amma onlar ya tam qəbul edilməyib, ya da özünü doğrultmayıb. Sevindirici haldır ki, artıq Amerika və Avropada bu sahədə ixtisaslaşmış ekspertlər Azərbaycanın onlar üçün nümunə ola biləcəyini etiraf edirlər. Azərbaycandakı tolerantlıq mühitinin nümunəvi model olduğunu beynəlxalq təşkilatların ekspertləri, nüfuzlu din xadimləri və diplomatlar da təsdiqləyirlər. Məsələn, Vatikanın Dövlət katibi Tarçizio Bertoninin və ABŞ-ın ölkəmizdəki keçmiş səfiri Ənn Dersinin məşhur fikirlərini yəqin ki, çoxları xatırlayır. Onlar deyirdilər ki, Azərbaycan Qərbə təkcə neft, qaz deyil, həm də tolerantlıq ixrac edə bilər.

İslam dünyasına gəlincə, vəziyyət bir qədər fərqlidir. Çünki İslam dünyası üçün həm dinlərarası, həm də məzhəblərarası dialoq çox önəmlidir. Hazırda məzhəblər arasında ciddi problemlər mövcuddur. Ölkəmizdə müxtəlif məzhəblərin nümayəndələri əsrlər boyu bir yerdə yaşayıblar. Lakin nə vaxtsa onların arasında qarşıdurma, kiçik insident belə yaranmayıb. Müxtəlif məzhəblərin nümayəndələri eyni kənddə, eyni qəsəbədə, eyni şəhərdə yaşayıb, hətta eyni məsciddə ibadət ediblər. Onların arasında qohumluq və qardaşlıq əlaqələri yaranıb. İslam dünyasında bu cür nümunələr tapmaq çox çətindir. Ona görə də Azərbaycan İslam dünyası üçün həm dinlərarası, həm də məzhəblərarası dialoq baxımından nümunəvi ölkədir.

ISESCO və qurumda çalışan ekspertlər bu həqiqəti anlayır və qəbul edirlər. Hətta ISESCO-nun Baş katibi Əbdüləziz bin Osman əl-Tüveycri bizimlə görüşündə bildirdi ki, Azərbaycanın bu cür nümunəvi ölkə olması İslam dünyasının üstünlüyüdür. Məncə, Azərbaycanın tolerantlıq modelinin nümunə kimi təbliğ və qəbul edilməsində ISESCO ilə yaxından əməkdaşlığımız vacibdir. Bu sahədə həyata keçirilən işlərə ISESCO böyük töhfələr verə bilər.

**- Konfransa və sərgiyə göstərilən maraq sizi qane etdimi?**

- Qısa müddətdə hazırlanmasına baxmayaraq, Rabatda akkreditə olunmuş səfirliklərin əksəriyyətinin nümayəndəsi konfransa qatılmışdı. Hətta tədbirdə Türkiyə, Çin, Malaziya və Qana səfirləri şəxsən iştirak etdilər. Eyni zamanda, beynəlxalq təşkilatların ekspertləri, elm adamları və media nümayəndələri də konfransa ciddi maraq göstərdilər.

Bəzən konfranslarda Azərbaycanın tolerantlıq ənənələrindən və nümunələrindən danışırıq, ölkəmizin dinlər və mədəniyyətlərarası dialoqa verdiyi töhfəni izah edirik. Bunu ilk dəfə eşidən insanlar maraqla qarşılayırlar. Amma konfrans çərçivəsində foto-sərgi ilə tanış olduqda isə vəziyyət tamamilə dəyişir. Çünki həmin insanlar Azərbaycan tolerantlığı ilə bağlı eşitdiklərini artıq əyani şəkildə görürlər. Bu, Azərbaycan həqiqətlərinin əyani şəkildə təbliğ edilməsi və qəbul olunması deməkdir. Məsələn, mən ISESCO-da konfrans çərçivəsində təşkil edilən foto -sərginin açılışında bildirdim ki, Azərbaycanda Yəhudiliyin təxminən 26 əsrlik, Xristianlığın 2 minillik, İslamın isə 14 əsrlik tarixi var. Cənubi Qafqazın ən qədim kilsəsi və ən qədim məscidi Azərbaycandadır. Diplomatlar bunu eşidəndə çox təəccübləndilər. Hətta onlardan biri mənə dedi ki, üç səmavi dinin mənsubları arasında dialoqun baş tutması üçün yeni konsepsiyaya ehtiyac yoxdur, sadəcə, Azərbaycan təcrübəsini olduğu kimi tətbiq etmək lazımdır.





# Ağstafa rayonu ictimaiyyəti ilə görüş olub

Mayın 14-də Ağstafa rayonunda İcra Hakimiyyətinin təşkilatçılığı və Azərbaycan Respublikasının Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərovun iştirakı ilə keçirilmiş növbəti toplantıda cari məsələlərlə yanaşı, dini radikalizmə qarşı keçirilən tədbirlər barədə müzakirələr aparılıb. Toplantıda Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev və onun müavinləri, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, İcra Hakimiyyəti Aparatının şöbə müdirləri və rayonun idarə, müəssisə və təşkilat rəhbərləri, ictimai təşkilatların, dini icmaların nümayəndələri, həmçinin, Komitənin Gəncə şəhəri və Tovuz-Ağstafa-Qazax bölgəsi üzrə şöbə müdirləri və məsul işçiləri də iştirak edib.

Tədbirdə çıxış edən RİH başçısı Məhərrəm Quliyev ölkəmizin sosial-iqtisadi inkişafı, milli-mənəvi dəyərlərin cəmiyyətdə dolğun təşviqi və yaşadılması, eləcə də din sahəsində həyata keçirilən dövlət siyasətinə uyğun olaraq Ağstafa rayonunda görülən işlər barədə məlumat verib.

Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov çıxış edərək din sahəsində həyata keçirilən dövlət siyasətinin əsas istiqamətləri barədə danışıb, dini sabitliyin qorunub saxlanılması və dini maarifləndirmə istiqamətində Komitə tərəfindən görülən işlərdən bəhs edib. Natiq bölgələrdə aparılan işləri geniş təhlil edərək, radikal yönümlü cərəyanların daşıyıcılarının qarşısının alınmasında əldə olunan təcrübəni diqqətə çatdırıb. S.Heydərov dini maarifləndirmə sahəsində görülməsi zəruri olan məsələlərə də toxunaraq din xadimlərinin üzərinə düşən işləri xüsusi vurğulayıb.



# Mərakeşdə "Müsəlman dünyasında dinlərarası dialoq və mədəniyyətlərarası anlaşmanın təşviqi modelləri" mövzusunda konfrans keçirilib




**Mayın 15-də Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ISESCO ilə birgə bu təşkilatın Mərakeşin paytaxtı Rabat şəhərindəki iqamətgahında "Müsəlman dünyasında dinlərarası dialoq və mədəniyyətlərarası anlaşmanın təşviqi modelləri" mövzusunda konfrans təşkil edib. Konfransda Dövlət Komitəsinin nümayəndələri, ISESCO-nun rəsmiləri, Azərbaycan Respublikasının Mərakeşdəki səfiri Tariq Əliyev, səfirliyin əməkdaşları, Rabatda akkreditə olunmuş səfirliklərin təmsilçiləri, o cümlədən, Türkiyənin, Çinin, Malaziyanın səfirləri, elm adamları, ictimaiyyət nümayəndələri, media təmsilçiləri, Mərakeş-Azərbaycan Dostluq Cəmiyyətinin üzvləri iştirak ediblər.**

Konfransın açılışında çıxış edən ISESCO-nun Baş direktorunun müavini xanım Amine al-Hijri müasir dünyada tolerantlığın və mədəniyyətlərarası dialoqun əhəmiyyətindən danışıb. O, İslamdakı tolerantlıq prinsiplərindən danışaraq, ISESCO-nun bu sahədəki fəaliyyətinə toxunub. Eyni zamanda, xanım al-Hijri tolerantlıq və mədəniyyətlərarası dialoq sahəsində Azərbaycanın müsbət təcrübəsini xüsusi qeyd edib.

Konfransda çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov bu gün mütərəqqi dünyanın başlıca demokratik dəyərlərdən biri kimi təbliğ etdiyi tolerantlığın Azərbaycan xalqının əsrlər boyu formalaşan və bir çoxları üçün örnək olan xarakterik xüsusiyyəti olduğunu bildirib. G.İsmayılovun sözlərinə görə, bütün etnik və dini qrupların Azərbaycan ərazisində mehriban bir ailə kimi yaşamasında, onların sülh və əmin-amanlıq şəraitində istər ölkəmizin, istərsə də regionun inkişafı üçün çalışmasında, ümumiyyətlə, bu böyük nailiyyətin əldə edilməsində və nəsildən-nəslə ötürülməsində ölkəmizin aparıcı dini olan İslam dininin böyük rolu olub. Ancaq təəssüf ki, son zamanlar dünyanın müxtəlif regionlarındakı müsəlmanları ekstremist, təməlçi, tolerantlıq prinsiplərini tapdalayan insanlar kimi göstərməyə çalışan bəzi qüvvələr var. Bəlalərinə və İslamın humanizmdən uzaq din kimi qələmə vermə hallarına bəzi Qərb ölkələrində tez-tez rast gəlinir. Belə münasibəti İslam dininə, bütün müsəlman dünyasına və onun tərkib hissəsi kimi Azərbaycan xalqına qarşı, ən azı, ədalətsizlik hesab etmək olar.

Gündüz İsmayılov deyib ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra xalqımızın xarakterik keyfiyyəti olan tolerantlığın daha da inkişaf etdirilməsi üçün hüquqi baza yaradılmış, bu sahə dövlət nəzarəti altına keçmişdir. Ölkəmizdəki dini dözümlülük, ümumiyyətlə tolerantlıq mühiti Ümummilli Lider Heydər Əliyevin dövlətçilik siyasətinə uyğun olaraq daha da möhkəmlənmiş, bu sahədə dövlət siyasətinin prioritet istiqamətinə çevrilmişdir. G.İsmayılov Ümummilli Lider Heydər Əliyevin alternativsiz siyasi xəttini uğurla və uzaqgörənliklə həyata keçirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkədə tolerantlığın və dini etiqad azadlığının təminatçısı olduğunu xüsusi qeyd edib. O bildirib ki, bu gün Azərbaycanda İslam dininə aid tarixi abidələr, məscid və ziyarətgahlarla bərabər, xristian və yəhudi məbədlərinin tikintisi və bərpası bütün dünyaya nümunə göstərilə biləcək həqiqətdir. Eyni zamanda, G.İsmayılov qeyd edib ki, UNESCO və ISESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun ardıcıl və təqdirəlayiq fəaliyyətini xüsusi vurğulamaq lazımdır. Bu gün Azərbaycan hökumətinin əsas məqsədlərindən biri tarixən ölkəmizdə formalaşmış və xalqımızın xarakterik xüsusiyyətinə çevrilmiş tolerantlıq ənənələrini daha da inkişaf etdirmək, həmçinin, tolerantlığı və dinlərarası dialoqu beynəlxalq aləmdə təşviq etməkdir. Bu məqsədlə Azərbaycan nüfuzlu beynəlxalq tədbirlərə ev sahibliyi edir, böyük layihələrin iştirakçısı və icraçısı qismində çıxış edir. G.İsmayılovun sözlərinə görə, bu sahədə Azərbaycanın təcrübəsinin dünya miqyasında öyrənilməsinin və tətbiq edilməsinin zəruriliyi beynəlxalq təşkilatlar, nüfuzlu din xadimləri və diplomatlar səviyyəsində etiraf olunan həqiqətdir. Həttа bu təcrübənin öyrənilməsi və tətbiq olunması istiqamətində konkret təkliflər verən, gərəkli addımlar atan beynəlxalq qurumlar və tanınmış din xadimləri də var. Bu baxımdan Azərbaycan onun təcrübəsinin yayılmasında beynəlxalq təşkilatlar, o cümlədən ISESCO ilə sıx əməkdaşlıq edə bilər. Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq siyasətinə toxunan Gündüz İsmayılov işğal olunmuş ərazilərimizdə xalqımıza məxsus İslam abidələrinin vandalcasına dağıdıldığını və Ermənistanın bu siyasətinin regionda sülh və mədəniyyətlərarası dialoq üçün ciddi təhdid və təhlükə olduğunu vurğulayıb.

Açılışdan sonra konfans panel şəklində öz işini davam etdirib. Konfransda ISESCO-nun Mədəniyyət və Kommunikasiya üzrə direktoru doktor Əhməd Oqlah Sayyad Alnezi, II Həsən adına Universitetin professoru xanım Karima Yatrbi, eyni zamanda, ISESCO-nun Planlaşdırma, informasiya və sənədləşdirmə mərkəzinin rəhbəri Mustafa Ahmed Ali, DQİDK-nın Xarici əlaqələr şöbəsinin müdiri Nicat Məmmədli, Təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Niyaz Yaqubov çıxış edərək, İslam dünyasındakı tolerantlıq prinsiplərindən, mövcud dünyanın tolerantlığa olan ehtiyacından və Azərbaycanın təcrübəsinin xüsusiyyətlərindən danışıblar.

Konfrans çərçivəsində ISESCO-nun Baş qərargahında "Azərbaycan-İslam mədəniyyətinin incisi" adlı sərgi təşkil edilib. Sərgidə Azərbaycanda tarixi-dini abidələrin, məscid və ziyarətgahların, o cümlədən, müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan hökuməti və Heydər Əliyev Fondu tərəfindən bərpa edilərək yenidən qurulmuş məscid və ziyarətgahların fotoları nümayiş olunub.

Konfrans başa çatdıqdan sonra ISESCO-nun Baş katibi cənab Əbdüləziz Osman əl- Tüveycri Azərbaycandan gələn nümayəndə heyəti və Azərbaycanın Mərakeşdəki səfiri Tariq Əliyevi qəbul edib. Görüşdə Azərbaycanın tolerantlıq ənənələri, İslam dünyasındakı tolerantlıq ənənələrinin təbliğ edilməsinin zəruriliyi və digər məsələlər müzakirə olunub. Cənab əl-Tüveycri bildirib ki, Azərbaycanın tolerantlıq sahəsində zəngin ölkə olması İslam dünyası üçün böyük üstünlükdür. Gündüz İsmayılov tədbirin təşkilinə, eyni zamanda Azərbaycanı dəstəklədiyinə, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasına görə cənab əl-Tüveyriciyə öz təşəkkürünü bildirib.

# "Dini radikalizm və İslam dünyası"

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi arasında "Dini radikalizmlə mübarizənin effektliytinin artırılması məqsədilə Daxili Qoşunların şəxsi heyətinin maarifləndirilməsi istiqamətində birgə işin təşkilinə dair Tədbirlər Planı" çərçivəsində Zaqatala rayonunda Daxili Qoşunların N saylı hərbi hissəsində "Dini radikalizm və İslam dünyası" mövzusunda mühazirə təşkil edilib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov tədbirdə çıxış edərək dini radikalizmi doğuran səbəblərdən, İslam dünyasında baş verən proseslərdən danışıb. Gündüz İsmayılov bildirib ki, radikalizmi doğuran başlıca səbəblərdən biri İslam dini haqqında məlumatsızlıq və yanlış yönləndirilmədir. İslam dini haqqında bilgiləri zəif olan insanların radikal cərəyanlara, qruplara cəlb edilməsi daha asan olur. Ona görə də dini radikalizmlə mübarizədə ilk növbədə dini maarifçilik işinin təşkilinə xüsusi önəm verilməlidir.

Komitə sədrinin müavini ölkəmizin bütün rayon və şəhərlərində, cəmiyyətin bütün təbəqələrini əhatə etməklə mütəmadi olaraq keçirilən konfrans və treninqlərdən ətraflı danışaraq dini maarifləndirmə ilə bağlı tədbirlərin davam etdirilməsinin zəruriliyini vurğulayıb.

Gündüz İsmayılov qeyd edib ki, bu prosesə bütün ictimaiyyət nümayəndələri, təhsil işçiləri, KİV, QHT sektoru, hüquq mühafizə orqanları və digər strukturlar cəlb olunub.

Sonda Gündüz İsmayılov görüş iştirakçılarının suallarını cavablandırıb.



# 6 saylı cəzaçəkmə müəssisəsində dini maarifləndirmə ilə bağlı tədbir keçirilib

Ədliyyə Nazirliyi Penitensiar xidmətinin Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə birgə hazırladığı tədbirlər planına əsasən, məhkumların vicdan və dini etiqad azadlığının təmin edilməsi məqsədilə cəzaçəkmə müəssisələrində dini maarifləndirmə tədbirləri davam etdirilir.

Növbəti maarifləndirici tədbir 19 may 2015-ci il tarixdə Penitensiar xidmətin 6 saylı cəzaçəkmə müəssisəsində keçirilib. "Radikal dini cərəyanlar" mövzusunda keçirilən tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Dinşünaslıq ekspertizası şöbəsinin müdiri Nahid Məmmədov, Bakı Dövlət universitetinin Tarix fakultəsinin müəllimi, ilahiyyatçı alim Saleh Kazımov və Penitensiar xidmətin Tərbiyə işinin təşkili idarəsinin rəis müavini ədliyyə polkovnik-leytenantı İntiqam Əliyev iştirak ediblər.

Mövzu ətrafında müzkirələr aparılıb, məhkumların çoxsaylı sualları cavablandırılıb.

# R.Qaynutdin: Əminəm ki, Bakıda birinci Avropa Oyunları yüksək səviyyədə keçiriləcək



"Prezident İlham Əliyev başda olmaqla, bütün Azərbaycan xalqına böyük ehtiram dolu ən səmimi hisslərimi və dualarımı çatdırmaq istəyirəm. Azərbaycan xalqının çiçəklənməsi, öz həyatını yaxşılaşdırmaq, sivilizasiya və din naminə öz ölkəsini inkişaf etdirmək arzusunda xalqınızın yekdil olması üçün qadir Allaha dua edirəm. Əminəm ki, siz müdrik Prezidentiniz İlham Əliyevin rəhbərliyi ilə bu uğurlara nail olacaqsınız. Mən Azərbaycanı səmimi qəlbdən sevirəm".

Bu sözləri AZƏRTAC-ın müxbiri ilə söhbətində Rusiya Müftilər Şurasının sədri Ravil Qaynutdin söyləyib.

Rusiya Müftilər Şurasının sədri Bakıda birinci Avropa Oyunlarının keçirilməsi ilə bağlı xeyir-dua verərək bildirib ki, Azərbaycan beynəlxalq tədbirləri həmişə çox yüksək səviyyədə təşkil edir. O deyib: "Azərbaycan böyük mədəni ənənələr ölkəsidir. Əminəm ki, Bakıda birinci Avropa Oyunları yüksək səviyyədə keçiriləcək. Dua edirəm ki, bu müsəlman ölkəsi, qədim və zəngin mədəniyyəti olan ölkə bütün dünyaya nümunə göstərsin".

# Dini radikalizmlə mübarizə mövzusunda seminar-treninq



Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi arasında "Gənclərin dini maarifləndirmə işinin təşkilinə dair birgə Tədbirlər Planı" çərçivəsində mayın 14-də Suraxanı Rayon Gənclər Evində "Dini radikalizmlə mübarizədə gənclərin rolu" mövzusunda seminar-treninq təşkil ediib.

Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin əməkdaşları Mahir Qəniyev, Şəhriyar İsmiyev, Bakı şəhəri Gənclər və İdman Baş İdarəsinin rəis müavini Aydın Yusifov və Suraxanı Rayon Gənclər və İdman İdarəsinin rəisi Amil Bağırov iştirak ediblər. Tədbiri giriş sözü ilə açan Aydın Yusifov mövzunun aktuallığını qeyd edərək, gənclərlə bu səpkili görüşlərin keçirilməsinin çox böyük əhəmiyyətə malik olduğunu bildirib. Dövlət Komitəsinin əməkdaşı Mahir Qəniyev məruzə ilə çıxış edərək dini radikalizmi doğuran səbəblərdən, İslam dünyasında baş verən proseslərdən danışıb. O, bildirib ki, radikalizmi doğuran başlıca səbəblərdən biri İslam dini haqqında məlumatsızlıq və yanlış yönləndirilmədir. İslam dini haqqında bilgiləri zəif olan insanların radikal cərəyanlara, qruplara cəlb edilməsi daha asan olur. Ona görə də dini radikalizmlə mübarizədə ilk növbədə dini maarifçilik işinin təşkilinə xüsusi önəm verilməlidir.

Ekspert qeyd edib ki, radikalizmlə mübarizədə hər bir Azərbaycan vətəndaşı, xüsusilə də gənclər fəal iştirak etməli və bu prosesə öz töhfəsini verməlidirlər.

Daha sonra görüş iştirakçılarının çoxsaylı sualları cavablandırılıb.

Bu cür tədbirlərin ilin sonunadək paytaxtın digər rayon idarələrində keçirilməsi nəzərdə tutulur.

# "Dövlət və Din"in növbəti sayı nəşr olunub

***"Dövlət və Din" ictimai fikir toplusunun dördüncü nömrəsi işıq üzü görüb.***

Toplu Prezident İlham Əliyevin Məkkə şəhərində Ümrə, Mədinə şəhərində isə Peyğəmbər məscidinə ziyarəti, Pasxa bayramı münasibətilə pravoslav xristian icmasına təbriki və Bakıda "İslam maarifçiliyi və müasir dövr" mövzusunda keçirilən beynəlxalq konfransın iştirakçılarına müraciəti ilə açılır.

Jurnalda yer alan "Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət-din münasibətləri" başlıqlı məqalədə AXC hakimiyyəti dövründə dindarların dövlət quruculuğunda və düşmənlərə qarşı mübarizədə göstərdikləri xidmətlər işıqlandırılıb. Dövlət-din münasibətlərinin tarixi köklərinin araşdırıldığı yazıda Azərbaycan xalqının öz müqəddəratını həll etmək istiqamətindəki mübarizəsində İslam amilinin rolundan bəhs olunub. Həmçinin, 1918-ci il Mart soyqırımı ərəfəsində, Bakının azad edilməsində və sonrakı proseslərdə dini mərkəz olan Təzəpir məscidinin rolu, "Məşixət"in yaranması, "İttihadi-İslam" firqəsi və onun siyasi fəaliyyəti, Dini Etiqad Nazirliyi haqqında məlumatlar verilib.

Topluda diqqət çəkən "Qloballaşma müasir beynəlxalq münasibətlərin əsas tendensiyası kimi" adlı məqalədə müasir dövrün aktual mövzularından olan qloballaşmaya hərtərəfli aydınlıq gətirilməyə çalışılıb. Qeyd edilib ki, qloballaşma problemi artıq uzun illərdir ki, tədqiqatçıların əsas araşdırma mövzusuna çevrilib. Müəllifin sözlərinə görə, müasir siyasi proseslər artıq qəti olaraq sübuta yetirib ki, XXI əsrdə bəşəriyyətin inkişaf tendensiyasını məhz qloballaşma müəyyənləşdirir. Həmçinin bildirilib ki, qloballaşma yeni anlayış deyil. Bəşəriyyət tarixi boyu inteqrasiyaya meyil göstərib. Ancaq bu gün qloballaşma bütün dövlətlərin iqtisadi, siyasi, sosial, mədəni sahələrini əhatə edib və bu prosesin təsiri altında beynəlxalq münasibətlər yeni xarakter almağa başlayıb.

Nəşrdə yer alan maraqlı məqalələrdən biri də "Müasir İslam universalizmi"dir. Məqalə İslam dəyərlərinin bütün bəşəriyyət üçün universallığı ideyasının təhlilinə həsr olunub. Bu məqsədlə nüfuzlu müsəlman liderlərin və ictimai qurumların fəaliyyətindəki universalizm təmayülü araşdırılıb və multikulturalizm, Xristian və İslam universalizmi ideyaları arasında müqayisəli təhlil aparılıb.

Həmçinin "İslam biotexnologiyalar əsrində", "Qloballaşma və milli dəyərlərin gələcəyi", "İslamofobiya – anti-islam siyasətinin təzahürü", "Əhməd Ərdəbilinin «Əqaidul-İslam» əsərində məad", «Rəcm ayəsi» ilə bağlı rəvayətlərin təhlili", "Modern Suudi Arabistan'da Şiilik ve İran'ın Suudi Arabistan şiileri üzerindeki etkisi", "Naxçıvan əhalisinin etnik və dini tərkibi tarixi mənbələrdə (XII-XIV əsrlər)", "İnsan - ən üstün varlıq", "XV-XVII əsrlərə aid Dirovdağ yaşayış məskəni haqqında", "Dinə niyə ehtiyac duyuruq?" başlıqlı məqalələrin də yer aldığı toplunun sonunda bu sayda işlədilmiş terminlərin izahı verilib.



# Ehtiyacın vəhşiliyi

Sizdən iraq, yoxsa yeriniz məlummu deyim, bilmirəm, bu günlərdə bir məclisə düşmüşdüm. Qəribədir ki, məclisdəkilərin hamısı iri adamlar idi. Hamısının buxağı sallanmış, qarınları artırmalı, gözləri iri, domba, qulaqların iriliyi lokator boyda, əllərin üzərində tüklərdən sıx ormanlıq, qaşlar çatılmış. Niyə belə idi, şaşırmışdım. Çoxdandır belə bir məclisə düşməmişdim. Bəlkə də düşmüşdüm, ancaq ola bilsin ki, qəfildən görünənləri daha aydın dərk etdim.



Ortalığa bir ucdan çeşid-çeşid yemək gəlirdi. Heç kim cınqırını çıxarmadan, bir-birinə baxmadan, ac canavar sürüsü kimi, elə bil, ovun üzərinə düşmüşdü. Tam bir vəhşət, tam bir şiddət. Yeməyə başlayarkən heç kimin dodağından bir kəlmə də qopmadı. Yaponlar yeməyə müqəddəs baxırlar. Niyə? Çünki qəbul etdiyimiz hər yemək vasitəsilə varlığımıza doğru fərqli, çeşidli informasiyalar süzülüb gəlir. Bizi canlı qılır, həm də başqa canlılardan fərqləndirir. Yaponlar bilirlər ki, hər nemətin tərkibindəki İlahi qaynağa söykənən, kosmik ahəngə uyğun informasiyalar insan varlığının qapısını döyür, açır, ehtiramla içəri daxil olur. Ancaq həmin informasiyaların gəlməsi önəmli deyil. Əsas olan o "qonağı" necə qarşılamaq, gülərüzlə qabağına çıxıb bir "xoş gəldin" deməkdir. Bu rəftar kosmik balansın təmin olunmasına xidmət edir.

Qədim Şərqin saysız-hesabsız dinlər, təlimlər və məktəblərinə görə, insanın cəmiyyət, ailə və evdən öncə, ilk növbədə, öz içindəkilərə, ətrafa, bağlı olduqlarına, əşyalara ehtiram nümayiş etdirməsi əxlaqın ən üstün dərəcəsidir.

Təsəvvür edin ki, yediyiniz bir alma diliminin tərkibindəki sağlam, xoş, energetik, başqaları ilə aranızda dialoq yaradacaq informasiya haralardan keçdikdən sonra o almanın tərkibində bir formaya düşərək sizin varlığınıza doğru tələsir, nəticədə bədəninizə daxil olur. O informasiya özünə əmindir. Bir haqq daşıdığını bilərək, gəldiyi yola, çıxdığı yerə güvənib sizə doğru süzür. Ancaq onun da varlığınızdan əmin olması üçün sizi ona tanıdan şifrə, işarə deyə biləcəyimiz bir söz olmalıdır. Bu söz bizim kültürümüzdə "bismillah" kəlməsidir. Bu prosesin elmi tərəfinə yönəlmədən və məqsədim "əzələ" nümayiş etdirmək olmadığından, keçirəm məğzə.

Elə düşdüyüm məclisdə də ulu yaponlardan əlamət, heysiyyət görmədiyimdən, məni bir qəriblik, tənhalıq basdı ki, gəl görəsən. İlahi, mən heç bu qədər qürbətçilik ab-havasında olmamışdım. Bu insanlar niyə mənə bu qədər yad olmalı idilər? Hiss edirdim ki, bu adamlar arasında eyni dildə danışmaq, eyni dəyərləri paylaşmaq absurddur. Biz - orada olanlar tamamilə fərqli adamlar idik.

Yenidən yaponlar yadıma düşərkən, adamlara haqq qazandırmaq keçdi ağlımdan. Bilirsiniz niyə? İlahi bilgiləri, kosmik informasiyaları o məhsul və qidalar insanın varlığına ötürüb, onu dəyərli, əxlaqlı edir ki, həmin məhsulların özü təbiidir. Havadan, sudan, işıqdan, torpaqdan və insan baxışlarından, zəhmətindən qidalanıb, "haqq qapısına" doğru varır, insana dopdolu gəlir. Ancaq bu insanlar nə etsinlər ki, saxta məhsullarla qidalandıqda gerçəkdən kosmik tarazlıqdan uzaq düşəcək, kimimiz öz üzərimizdə şiddətə yol verəcək, kimimiz də özünü qərib hiss edəcəkdi. O zaman yediyimiz yeməklərdən varlığımıza kosmik bilgilər, informasiyalar deyil, özgələrin bilgiləri, oyunları, hiyləgərlikləri, ikibaşlı fırıldaqları, ölümsaçan əməlləri daxil olacaqdı. Bax, belə bir duruma düşərkən, həmin ölümsaçan informasiyaların şüurumuza, ruhumuza doğru gəlişinin qarşısına "bismillah" kəlməsiylə də çıxsan, o, səni tanımayacaq, səni özününkü edəcək, ölüyə çevirəcək. Və sən o "gələni" özününküləşdirə bilməyəcəksən.

Öz bədənini, canını, varlığını tanımayan insan vaxtı, zamanı heç hiss etməz. Bu zaman bizim başqa canlılardan heç bir fərqimiz olmaz. Zaman, vaxt dəyişir, illər bir-birini əvəz edir, yenilənir. Halbuki ilin, günün, vaxtın yeniliyi yediklərimiz vasitəsilə varlığımızda hərəkət yaradan o ilahi xəbərlərdən, informasiyalardan sonra bizim nə qədər oyaq olmağımızdan asılıdır.

***Xanəmir TELMANOĞLU***



# Təvəssül mədəniyyəti tövhid mərkəzlidir



Quranda təvəssülün icazəli olmasına dair göstərilən möhkəm dəlillərdən biri "Nisa" surəsinin 64-cü ayəsidir. Adətən, həssas mövzulara aid ayələri qeyd edərkən onların hərfi tərcüməsinin göstərilməsinə üstünlük verirəm. Səbəbi isə aydındır, çünki ədəbi tərcümələrdə, adətən, orijinal mətnə əlavələr də olunur. Qeyd edilən ayənin hərfi tərcüməsi belədir: **"...Əgər onlar - özlərinə zülm edən zaman - sənin yanına gəlsəydilər, sonra Allahdan bağışlanma istəsəydilər və Peyğəmbər onlar üçün bağışlanmaq diləsəydi, Allahı tövbələri çox qəbul edən, mərhəmətli görərdilər".**

Ayəyə diqqət etdikdə tövhidmərkəzlilik aydın şəkildə nəzərə çarpır. Belə ki, ayənin əvvəlində onların Allahdan bağışlanma diləmələri, ortasında Peyğəmbərin (s) onlar üçün əfv diləmələri, sonda isə ilahi rəhmətin həyatlarında təzahür edəcəyi bildirilir. Deməli, əvvəl Allah, sonra isə Peyğəmbər (s) gəlir. Sonda yenidən Allahın tövbələri qəbul edən və rəhimli olduğu vurğulanır. Ayədən göründüyü kimi, təvəssül mədəniyyətində riayət edilməli olan məsələ tövhidlə başlayıb, tövhidlə sonlandırmaqdır. Bu ikisi arasında isə vasitəyə - Peyğəmbərə (s) sarılmaq lazımdır. Buna əsasən, Quran təvəssülə icazə verir, amma tövhid işığında...

"Maidə" surəsinin 35-ci ayəsində də eyni tövhidmərkəzlilik prinsipinə riayət edilir. Adıçəkilən Quran ayəsi təvəssülü dini ayin kimi icazəli hesab edən ana ayədir. Onun hərfi tərcüməsi belədir: "Ey o kəslər ki, iman gətirdilər, Allahdan qorxun və Ona vasitə axtarın və Onun yolunda cəhd edin, ola bilsin ki, nicat tapasınız!" Göründüyü kimi, əvvəldə Allah, ortada təvəssül, sonda yenə də Allah qeyd olunur. Bu isə tövhidmərkəzlilikdir.

Ayənin incə bir mesajı da var. Təvəssül etməzdən öncə insan iki mərhələni qət etməlidir ki, buna hazırlıqlı olsun: iman və təqva mərhələsi. Bu iki mərhələdən sonra təvəssülə qədəm qoya bilər. Təvəssül etdikdən sonra yenə də tövhidə sarılmalı və vasitəçinin ona edəcəyi duanın həyata keçməsi üçün tövhidin tələblərinə uyğun, yəni Allahın buyruqları çərçivəsində davranmalıdır. Aydındır ki, kimsə təvəssül etsə, sonra da günah işlə məşğul olsa, bu günah onun təvəssüldə istədiyi şeyin həyata keçməsinə maneə olacaqdır. Elə buna görə də Quran insanı təvəssüldən sonra tövhidin tələblərinə qarşı hər hansı iş görməməyə çağırır. Çünki Qurana görə, əməllərin qəbul olma şərti yalnız "təqva" prinsipidir: **"...Allah yalnız təqvalılardan qəbul edər"** (Maidə, 27).

Beləliklə, mərkəz tövhid, ətraf isə təvəssül olmalıdır. Mərkəzdən uzaqlaşsaq, təvəssülümüz də öz effektini itirəcəkdir.




***Emin İMANLI***

# Dini qurumların dövlət reyestr məlumatı

**Ləğv olunan dini icmalar**

**Goranboy rayonu Borsunlu kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 01.10.2004-cü il**
**Qeydiyyat № 293**
Goranboy rayonu Borsunlu kənd məscidi dini icması təsisçilərinin 06.04.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
**Qeydiyyata alınma tarixi: 06 may 2015-ci il**

**Saatlı şəhəri "Cümə" məscidi dini icması**
**Qeydiyyat tarixi: 17.10.1997-ci il**
**Qeydiyyat № 195**
Saatlı şəhəri "Cümə" məscidi dini icması təsisçilərinin 13.04.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
**Qeydiyyata alınma tarixi: 06 may 2015-ci il**

**Bakı şəhəri "Mirtağı" məscidi dini icması**
**Qeydiyyat tarixi: 18.01.2002-ci il**
**Qeydiyyat № 11**
Bakı şəhəri "Mirtağı" məscidi dini icması təsisçilərinin 14.04.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
**Qeydiyyata alınma tarixi: 06 may 2015-ci il**

**Abşeron rayonu Aşağı Güzdək qəsəbə məscidi dini icması**
**Qeydiyyat tarixi: 03.09.2004-cü il**
**Qeydiyyat № 283**
Abşeron rayonu Aşağı Güzdək qəsəbə məscidi dini icması təsisçilərinin 14.04.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

**Qeydiyyata alınma tarixi: 06 may 2015-ci il**
**Saatlı rayonu Qarayevkənd kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 06.02.2002-ci il**
**Qeydiyyat № 45**
Saatlı rayonu Qarayevkənd kənd məscidi dini icması təsisçilərinin 11.04.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
**Qeydiyyata alınma tarixi: 06 may 2015-ci il**

**Oğuz rayonu Kərimli kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 03.12.2007-ci il**
**Qeydiyyat № 130701-410**
Oğuz rayonu Kərimli kənd məscidi dini icması təsisçilərinin 04.04.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
**Qeydiyyata alınma tarixi: 06 may 2015-ci il**

**Qobustan rayonu Təklə kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 20.08.2003-cü il**
**Qeydiyyat № 205**
Qobustan rayonu Təklə kənd məscidi dini icması təsisçilərinin 02.04.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
**Qeydiyyata alınma tarixi: 06 may 2015-ci il**

**Şəki rayonu Qoxmuq kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 30.12.2012-ci il**
**Qeydiyyat № 152**
Şəki rayonu Qoxmuq kənd məscidi dini icması təsisçilərinin 13.04.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
**Qeydiyyata alınma tarixi: 06 may 2015-ci il**

**Hacıqabul rayonu Atbulaq kənd "Cümə" məscidi dini icması**
**Qeydiyyat tarixi: 27.05.2008-ci il**
**Qeydiyyat № 1308H1-494**
Hacıqabul rayonu Atbulaq kənd "Cümə" məscidi dini icması təsisçilərinin 04.05.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
**Qeydiyyata alınma tarixi: 25 may 2015-ci il**

**Zaqatala rayonu Aşağı Çardaxlar kənd "Cümə" məscidi dini icması**
**Qeydiyyat tarixi: 18.12.2008-ci il**
**Qeydiyyat № 1308Z1-526**
Zaqatala rayonu Aşağı Çardaxlar kənd "Cümə" məscidi dini icması təsisçilərinin 02.05.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
**Qeydiyyata alınma tarixi: 25 may 2015-ci il**

**Şəki rayonu Daşüz kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 26.10.2006-ci il**
**Qeydiyyat № 1306Şə1-363**
Şəki rayonu Daşüz kənd məscidi dini icması təsisçilərinin 05.05.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
**Qeydiyyata alınma tarixi: 06 may 2015-ci il**

**Zaqatala rayonu Uzuntala kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 25.10.1999-cu il**
**Qeydiyyat № 325**
Zaqatala rayonu Uzuntala kənd məscidi dini icması təsisçilərinin 13.04.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
**Qeydiyyata alınma tarixi: 06 may 2015-ci il**

* * *

**Bakı şəhəri Qaradağ rayonu ökbatan qəsəbə məscidi dini icması**
**Qeydiyyat tarixi: 05 noyabr 2009-cu il**
**Qeydiyyat №-si: 100109A2 –09**
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən İsa İsmayıl oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Əhmədov Faiq Ağamoğlan oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
**Dəyişikliklərin qeydiyyat tarixi: 24 aprel 2015-ci il**

**Quba rayonu Dəlləkli kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 11 may 2010-cu il**
**Qeydiyyat №-si: 100110A3 – 358**
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Həsənov Xancan Aslan oğlu, Məmmədov İslam Ağa oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar. Həsənov Osman Ramazan oğlu, Məmmədov Ağa İslam oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər. Məmmədov İslam Ağa oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Həsənov Osman Ramazan oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

**Dəyişikliklərin qeydiyyat tarixi: 28 aprel 2015-ci il**

**Lənkəran rayonu Ləj kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 28 aprel 2010-cu il**
**Qeydiyyat №-si: 100110A2 – 331**
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Aslanov Şirəli İbad oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
**Dəyişikliklərin qeydiyyat tarixi: 28 aprel 2015-ci il**

**Qax rayonu Qaxingiloy kəndi "Müqəddəs Giorgi" kilsəsi gürcü pravoslav xristian dini icması**
**Qeydiyyat tarixi: 15 aprel 2010-cu il**
**Qeydiyyat №-si: 100110A2-286**
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Kosiaşvili Qenrieta Qeroyevna, Kuloşvili Sira Vasilyevna, Tartaraşvili Zura Ermaloyeviç, Dukaşvili Iamze Nikolayevna, Sukaşvili Emzari İvanoviç dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar. Buluqaşvili Kaxa Temuriyeviç, Kuloşvili Qoderzi Qrişayeviç, Zurabaşvili Lia İliayevna, Poladaşvili Marine Nikolayevna, Rostiaşvili Akaki Quramoviç dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrə daxil edilmişlər.
**Dəyişikliklərin qeydiyyat tarixi: 04may 2015-ci il**

**Göyçay rayonu Yalman kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 24 dekabr 2009-cu il**
**Qeydiyyat №-si: 100109A3 – 132**
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Novruzaliyev Soltan İsmayıl oğlu, Xəlilov İsmayıl Cəlil oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar. Novruzəliyev Mənsur İsmayıl oğlu, Salehov Zaur Qəhrəman oğlu, Əhmədov Mübariz Əhməd oğlu, Əliyev Arzu Süleyman oğlu, Salmanov Sərxan Mürsəl oğlu, Xələfov Tapdıq Xələf oğlu, Məmmədov Nicat Əvəz oğlu, Məmmədov Kənan Arif oğlu, Xələfov Tacəddin Şirvan oğlu, Qafarov Bünyad Siyavuş oğlu, İslamov Təbriz Əmirxan oğlu, Yaqubov Rəşad Nizami oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
**Dəyişikliklərin qeydiyyat tarixi: 21may 2015-ci il**

**Göyçay rayonu Bığır kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 24 may 2011-ci il**
**Qeydiyyat №-si: 100111A1 – 539**
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əzizov Xələf Qüdrət oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Abdullayev Ruslan Nurməmməd oğlu, Bilalov Zahid Zabit oğlu, Kərimov Zaur İsrayıl oğlu, Mehdiyev Əsəd AbdulƏhəd oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
**Dəyişikliklərin qeydiyyat tarixi: 21 may 2015-ci il**

**Balakən rayonu Qabaqçöl qəsəbə məscidi dini icması**
**Qeydiyyat tarixi: 28 dekabr 2009-cu il**
**Qeydiyyat №-si: 100109A3 – 147**
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Qadayev Mahama Ramazan oğlu, Əhmədov Məhəmməd Ömər oğlu, Xalayev Murtuzəli Qurbanmahama oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar, Əzizov Həmzət Murad oğlu, Süleymanov Xəlil İbrahimhacı oğlu, Çopsiyev Şəhmir Ramazan oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
**Dəyişikliklərin qeydiyyat tarixi: 21 may 2015-ci il**

**Balakən rayonu Kortala kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 01dekabr 2009-cu il**
**Qeydiyyat №-si: 100109A2 – 39**
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Ramazanov Cəmil Cəmaləddin oğlu, Mikayılov İsmayıl Nəcməddin oğlu, Həsrətov Məhəmməd Hacıməhəmməd oğlu, Xəmmədov Natiq Xəlil oğlu, Əliyev Zümrət İbrahim oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar. Ganzayev Mahir Sədrəddin oğlu, Kərimov Fəqan Zəybullah oğlu, Qocayev Qəhraman Musa oğlu, Mikayılov Vüqar İsmayıl oğlu, Həsrətov Nəsrəddin Məhəmməd oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
**Dəyişikliklərin qeydiyyat tarixi: 21 may 2015-ci il**

**Oğuz rayonu Padar kəndi "Cümə" məscidi dini icması**
**Qeydiyyat tarixi: 28 iyul 2010-cu il**
**Qeydiyyat №-si: 100110A4 – 453**
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Cəfərov Zaman Camaləddin oğlu, Əhmədov Cumar Mahmud oğlu, Dadaşov Vidadi Mürsəl oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar. Əhmədov Nizami Cumar oğlu, Cəfərov Fərid Zaman oğlu, Abduyev Məmmədcəlil Musa oğlu, Kərimov Məsim Məmməd oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər. Cəfərov Zaman Camaləddin oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Zeynalov Seymur Əvəz oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
**Dəyişikliklərin qeydiyyat tarixi: 21 may 2015-ci il**

**Göyçay rayonu Alpout kəndi "Hacı Cəlil" məscidi dini icması**
**Qeydiyyat tarixi: 24may 2011-ci il**
**Qeydiyyat №-si: 100111A3 – 542**
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Abbasov Məhəmmədəli Bulud oğlu, Eyubov Yolçu Aslan oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar. Hüseynov Fəqan Ağahüseyn oğlu, Məmmədov Əlisa Feyruz oğlu, İsrəfilov Hüseyn İlqar oğlu, Abbaslı Zaur Müşfiq oğlu, Abbasov Müşfiq Ağalar oğlu, Məmmədov Valeh Feyruz oğlu, Əbduxalıqov Qədir Talıb oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər. Tağıyev Mikayıl Fəzayıl oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Hüseynov Fəqan Ağahüseyn oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
**Dəyişikliklərin qeydiyyat tarixi: 21 may 2015-ci il**

**Masallı şəhəri "Axund Məmmədqulu" məscidi dini icması**
**Qeydiyyat tarixi: 21 yanvar 2010-cu il**
**Qeydiyyat №-si: 100110A1 –174**
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əhədov Abdulla İsmayıl oğlu, Əliyev Yasər Həsən oğlu, Əliyev Məmmədhüseyn Həsən oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar. Quliyev Əliqulu Ərəstun oğlu, Quliyev Abdulhüseyn Həsən oğlu, Əliyev İmran Əlibala oğlu, Abdullayev Maşallah Əhməd oğlu, Cəfərov Rahib Ələkbər oğlu, Hacıyev Kərim Məhəmmədəli oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər. Ramazanov Firudin İbrahim oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Quliyev Əliqulu Ərəstun oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
**Dəyişikliklərin qeydiyyat tarixi: 21 may 2015-ci il**

# E L A N L A R

Hacıqabul rayonu Atbulaq kənd "Cümə" məscidi dini icmasının (1308H1-494 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 04.05.2015-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokol ilə həmin dini icmanın ləğv olunması barədə qərar qəbul edilmişdir.

Zaqatala rayonu Aşağı Çardaxlar kənd "Cümə" məscidi dini icmasının (1308Z1-526 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 02.05.2015-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

Şəki rayonu Daşüz kənd məscidi dini icmasının (1306Şə1-363 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 05.05.2015-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul olunmuşdur.

Zaqatala rayonu Uzuntala kənd məscidi dini icmasının (325 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 05.05.2015-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

Cəmiyyət və Din
№ 05 (286) / MAY 2015-ci il

# Əbu-Dabidə dəyirmi göydələn inşa edilib



Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə dünyada ilk dəfə dəyirmi formalı göydələn inşa edilib.

Bina "MZ Archtects" studiyası tərəfindən layihələndirilib.

Layihələndirmə zamanı bir çox formalar təklif olunub, sonda isə dəyirmi balıqqulağı forması qəbul edilib. Dairə həm də səmərəlilik, möhkəmlik və birlik rəmzidir. Bu formanın başlanğıc və son nöqtəsi olmadığı üçün onu sonsuzluq və mükəmməllik simvolu kimi də izah etmək olar.

Bu göydələn Əbu-Dabidə ekoloji baxımdan zərərsiz sayılan ilk ofis binasıdır.

# O, şəhəri "Twitter" vasitəsilə idarə edir

***İspaniyanın kiçik Xun şəhərinin meri - informasiya cəmiyyətinin və "birbaşa demokratiya" texnologiyalarının həvəskarı olan bu şəxs artıq dörd ildir ki, şəhəri "Twitter" sosial şəbəkəsi vasitəsilə idarə edərək, şəhər xidmət orqanları və əhali arasında əks-əlaqədə mikrobloqların ideal alət olduğunu sübuta yetirir.***

Xose Antonio Rodriqo Salas 2011-ci ildə mer postuna seçildikdən sonra şəhər əhalisinin hamılıqla "Twitter" şəbəkəsində də hesab açması və onu meriyada təsdiq etdirməsi üçün təşviqat aparmağa başlayıb. Hər istifadəçi bələdiyyə idarəsi tərəfindən təsdiqlənmiş şəxsi əlaqə xətti alıb. Bu xətt istifadəçiyə gündüz və ya gecənin istənilən vaxtı merə və ya bələdiyyə məmurlarına istənilən mövzu ilə bağlı müraciət etmək imkanı yaradır. İstifadəçinin məmurların səhifəsinə belə daxil olmasına ehtiyac yoxdur. Onun öz




"tvit"ində müraciət etdiyi məmurun adını yazması ilə qarşı tərəf daxil olmuş müraciəti dərhal görəcək.

Məmurun müraciətə cavab verməsi və ya onu bilavasitə icraçıya ötürməsi də "Twitter"də görünür. Şəhər əhalisi "Twitter" vasitəsilə şəhər şurasının onlayn rejimində keçirilən iclaslarında iştirak edə bilər. Merin sözlərinə görə, mikrobloqqinq şəhər administrasiyasının vaxtına və puluna qənaət edərək effektiv, sürətli və pulsuz kommunikasiya kanalı təqdim edir.

# Qan qruplarını uyğunlaşdıran ferment yaradılıb



Kanada kimyaçıları bütün qruplardan olan qanı köçürməyə yararlı edən ferment yaradıblar. Alimlər bildiriblər ki, bu fermentin köməyi ilə ikinci və üçüncü qruplardakı eritrositlərin antigenlərini kəsmək və onları birinci qrupa oxşatmaq mümkün olacaq. Məlum olduğu kimi, birinci qrupdan olan qanı, demək olar, hamıya köçürmək olar.

Qanın çox adları var, lakin tibb işçiləri onu "həyat çayı" adlandırırlar, çünki qansız həyat yoxdur. İnsan çoxlu qan itirməkdən ölür. Hətta qədim vaxtlarda insanlar cəsarətli, dözümlü və güclü olmaq üçün qan içirmişlər. Artıq XXI əsr olsa da, müasir təbabət hələ də qandan istifadə etmədən keçinə bilmir. Bu zaman çoxlu problem üzə çıxır, çünki hər bir insanın öz qan qrupu var və tələb olunan qan qrupu köçürülməlidir. Kanadalı kimyaçılar bu problemin həllini tapıblar, onların hazırladığı xüsusi ferment sayəsində "qan qrupu" problemindən yaxa qurtarmaq mümkündür.

Rəsmi məlumatlara görə, dünya əhalisinin təqribən 80 faizinin qan qrupu birinci və ikinci, 15 faizininki üçüncü, 5 faizininki dördüncü qan qrupudur.

## Yadigar söz

**Henrix Heyne**
*(alman şair-publisisti)*

**Millətlərin adət-ənənələri fərqlidir, ancaq yaxşılıq hər yerdə eynidir.**

## Bakı və Abşeron üzrə namaz vaxtları

| Gün | Sübh namazı | Gün çıxır | Zöhr namazı | Əsr namazı | Axşam namazı | İşa |
|---|---|---|---|---|---|---|
| 01 İyun | 04:46 | 06:14 | 13:42 | 18:19 | 21:19 | 23:02 |
| 02 İyun | 04:46 | 06:13 | 13:42 | 18:20 | 21:20 | 23:03 |
| 03 İyun | 04:45 | 06:13 | 13:42 | 18:20 | 21:20 | 23:04 |
| 04 İyun | 04:44 | 06:12 | 13:43 | 18:21 | 21:21 | 23:05 |
| 05 İyun | 04:44 | 06:12 | 13:43 | 18:21 | 21:22 | 23:06 |
| 06 İyun | 04:43 | 06:12 | 13:43 | 18:21 | 21:23 | 23:07 |
| 07 İyun | 04:43 | 06:11 | 13:43 | 18:22 | 21:23 | 23:08 |
| 08 İyun | 04:42 | 06:11 | 13:43 | 18:22 | 21:24 | 23:10 |
| 09 İyun | 04:41 | 06:11 | 13:43 | 18:22 | 21:25 | 23:11 |
| 10 İyun | 04:41 | 06:11 | 13:44 | 18:23 | 21:25 | 23:11 |
| 11 İyun | 04:41 | 06:10 | 13:44 | 18:23 | 21:26 | 23:12 |
| 12 İyun | 04:40 | 06:10 | 13:44 | 18:23 | 21:26 | 23:13 |
| 13 İyun | 04:40 | 06:10 | 13:44 | 18:24 | 21:27 | 23:14 |
| 14 İyun | 04:40 | 06:10 | 13:44 | 18:24 | 21:28 | 23:15 |
| 15 İyun | 04:40 | 06:10 | 13:45 | 18:24 | 21:28 | 23:15 |
| 16 İyun | 04:40 | 06:10 | 13:45 | 18:25 | 21:29 | 23:16 |
| 17 İyun | 04:40 | 06:10 | 13:45 | 18:25 | 21:29 | 23:17 |
| 18 İyun | 04:39 | 06:10 | 13:45 | 18:25 | 21:29 | 23:17 |
| 19 İyun | 04:39 | 06:10 | 13:46 | 18:26 | 21:30 | 23:18 |
| 20 İyun | 04:40 | 06:10 | 13:46 | 18:26 | 21:30 | 23:18 |
| 21 İyun | 04:40 | 06:10 | 13:46 | 18:26 | 21:30 | 23:18 |
| 22 İyun | 04:40 | 06:11 | 13:46 | 18:26 | 21:31 | 23:19 |
| 23 İyun | 04:40 | 06:11 | 13:46 | 18:27 | 21:31 | 23:19 |
| 24 İyun | 04:40 | 06:11 | 13:47 | 18:27 | 21:31 | 23:19 |
| 25 İyun | 04:40 | 06:11 | 13:47 | 18:27 | 21:31 | 23:19 |
| 26 İyun | 04:41 | 06:12 | 13:47 | 18:27 | 21:31 | 23:19 |
| 27 İyun | 04:41 | 06:12 | 13:47 | 18:27 | 21:31 | 23:19 |
| 28 İyun | 04:42 | 06:12 | 13:47 | 18:27 | 21:31 | 23:19 |
| 29 İyun | 04:42 | 06:13 | 13:48 | 18:28 | 21:31 | 23:19 |
| 30 İyun | 04:43 | 06:13 | 13:48 | 18:28 | 21:31 | 23:19 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Mərəzə, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Fizuli, Horadiz, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Xanlar, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim Azərbaycan MEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*



# Aviasərnişinlər baqajı mobil telefon vasitəsilə izləyə biləcəklər

Beynəlxalq reyslər həyata keçirən aviaşirkətlər və hava limanları üç ildən sonra sərnişinlərə baqajı canlı izləmək imkanı verməlidirlər. Rusiya KİV-inin yazdığına görə, bunu Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyası (IATA) tövsiyə edir. Sorğuların nəticələrinə görə, aviasərnişinlər öz baqajlarının vəziyyəti haqqında məlumat almaq istəyirlər. Aviaşirkətlərin 66 faizi bu xidməti 2017-ci ildə işə salmağı planlaşdırır.




Baş redaktor
Səyyad ARAN

Redaksiya şurası:
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV, Oqtay ORUCOV *(məsul katib)*, Gennadi ZELMANOVİÇ.

Ünvan: AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
Telefon: 492 65 23; 437 31 15
Tel/fax: 497 15 39
492 58 29; 437 31 15
Qaynar xətt: qaynar_xett@scwra.gov.az
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (055) 635 98 90
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 05 33
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
Tiraj: 1200
Sifariş: 124

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894